RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 266 (9721) 3 dekabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



**Azərbaycan Avropadan fərqli olaraq COP29-da bəşəriyyətin gələcəyini, xalqların rifahını düşündüyünü nümayiş etdirdi**

# QƏRBİN "MÜASİR İNSAN" MODELİ

Avropalı özünü hamıdan üstün bilir, yüksək tutur.

Odur ki, miqrantlara, başqa dinə mənsub olanlara yuxarıdan aşağı, həqarətlə baxırlar.

Onların "insan haqları"nın pozulmasına adi hal kimi yanaşırlar.

İş yerləri, əməkhaqları verilməsində mənfi mənada fərqləndirirlər.

Rusiya Prezidenti V.Putini Ukrayna hadisələrinə görə "cinayətkar" sayaraq həbsinə qərar verən Avropa Cinayət Məhkəməsi Xocalı soyqırımı törədən Ermənistan prezidentləri olmuş Sarkisyanı və Koçaryanı işğalçı saymır, onlara qucaq açır.

**Avropanın bu oyunları nə onlara qoşulmaq istəyənlərə, nə də özlərinə xeyir gətirir.**

Ukraynanı şirnikləndirdilər, bu gün əvvəlki Ukraynadan yerdə nə qalıb və daha nə qalacaq aydın görünür.

Gürcüstanı yolundan etdilər, gürcü xalqı torpaq itkisinə, müxtəlif təlatümlərə məruz qaldıqdan sonra vaxtında ayıldı, müstəqilliyini, tarixi, milli ənənələrini daha yüksək tutduğunu əyani şəkildə göstərdi.

Bu gün baş verən müxtəlif hadisələrdə "demokratik" Avropanın əsl siması aydın görünür.

Artıq Avropa İttifaqına qəbulun bir oyun, tələ olduğunu hamı əyani şəkildə görərək dərk edir.

*Avropa İttifaqının özünün böhran keçirdiyi, ABŞ-nin əlində alət olduğu, üzvlərinin - Böyük Britaniyanın ona arxa çevirdiyi bir vaxtda bu quruma üzv olmaq naminə itkilərlə barışmaq mənasız və ağılsız hərəkətdir.*

**Bu gün Avropa bir vaxtlar özünün elan etdiyi dəyərlərdən özü geri çəkilir.**

**Yaratdığı qurumlar həmin dəyərlərə deyil, korrupsiyaya, beynəlxalq hüququn tapdalanmasına xidmət edir.**

*Azərbaycan COP29-u keçirməklə dünyanın ekoloji fəlakətlərdən xilasına, insanların rahat və təhlükəsiz yaşamalarına yeni töhfələrin verilməsi üçün real addımlar atdı.*

BMT-nin patronajlığı ilə keçirilən bu tədbir həm də Avropanın və Avropada yaşayanların maraqlarına xidmət etdi.

Lakin Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen tədbirə qatılmadı.

Dünya planeti ən çox çirkləndirən Avropa İttifaqından yeni iqlim maliyyəsi gözlədiyi halda məsuliyyətdən yayındı.

Avropa qurumlarına rəhbərlik edənlərin iç üzü budur!

Dünyanın ekoloji fəlakətlərə düçar olduğu bir zamanda insanları, planetin gələcəyini düşünmək əvəzinə fərdi korrupsiya maraqlarını üstün tuturlar.

**Azərbaycan tədbiri yüksək səviyyədə keçirərək bəşəriyyətin xilası və rifahı naminə gərəkli addımlar atdı, bu yolda səmərəli fəaliyyət göstərməyə çalışanları toparlamaqla başladığı işi uğurla sona çatdırdı.**

Avropa İttifaqı rəhbərliyinin növbəti addımı isə artıq Avropa dəyərlərinin də mənəvi aşınmaya uğradığından xəbər verir.

→ 4

# İqtisadiyyat sahəsində əməkdaşlığın qurulması siyasi əlaqələrin möhkəmlənməsi işinə xidmət edəcək

## Azərbaycan Prezidenti İlham Əliyev Qvineya-Bisau Respublikasının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Qvineya-Bisaunun ətraf mühit naziri Viriato Kassama da daxildir.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu yaxınlarda Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşünü məmnunluqla xatırlayaraq əlaqələrimizin perspektivləri və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu görüşün çox səmərəli olduğunu dedi və həmin görüşdən az müddət keçməsinə baxmayaraq, Qvineya-Bisaudan nazirlər səviyyəsində nümayəndə heyətinin ölkəmizə səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadiyyat, o cümlədən ticarət və investisiya sahələrində əməkdaşlığın qurulmasının siyasi əlaqələrin də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Pinto Pereira Qvineya-Bisau Prezidentinin Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmlənməsi istəyini ifadə edərək, rəhbəri olduğu nümayəndə heyətinin ölkəmizə bu məqsədlə gəldiyini vurğuladı.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlığa toxunuldu, Azərbaycan tərəfindən ölkəmizin ali təhsil müəssisələrində Qvineya-Bisaudan olan tələbələrə xüsusilə mühəndislik, neft-mühəndisliyi və digər sahələrdə təhsil təqaüdlərinin ayrılması məsələsi qeyd edildi. Hələ sovetlər dövründə Qvineya-Bisaudan olan çoxlu sayda tələbənin müxtəlif sahələr üzrə Azərbaycanda təhsil aldıqları məmnunluqla xatırlandı, hazırda həmin şəxslərin Qvineya-Bisau hökumətində təmsil olunduqları bildirildi, həmçinin bugünkü nümayəndə heyətinin tərkibində olan nazirlərin və digər rəhbər şəxslərin də vaxtilə Azərbaycanda təhsil aldıqları vurğulandı.

Görüşdə neft və mədənçilik sahəsində əməkdaşlıq qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməsi və geoloji kəşfiyyat işlərinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Ölkələrimiz arasında diplomatik məsləhətləşmələr mexanizminin inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələləri müzakirə olundu.

Azərbaycanın "ASAN xidmət" təcrübəsinin Qvineya-Bisau üçün maraqlı olduğu qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın dövlət orqanları və özəl qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin vahid məkanda təmin edilməsi təcrübəsi olan "ASAN xidmət" BMT tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmiz bu sahədə öz təcrübəsini Qvineya-Bisau ilə bölüşməyə hazırdır.

# Azərbaycan ilə Rumıniyanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir

## Rumıniyanın Prezidenti zati-aliləri cənab Klaus Verner İohannisə

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Rumıniyanı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Siyasi, iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız dövlətlərarası əlaqələrimizin dinamik inkişafını şərtləndirən amillərdəndir.

Hazırda bir sıra sahələrdə tərəfdaşlığımızın daha da inkişaf etdirilməsi üçün əlverişli şərait mövcuddur. İnanıram ki, Azərbaycan ilə Rumıniya arasında istər ikitərəfli qaydada, istərsə də çoxtərəfli müstəvilərdə əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2024-cü il*

# Prezident İlham Əliyev Laçının işğaldan azad olunmasının dördüncü ildönümü münasibətilə paylaşım edib




Prezident İlham Əliyev Laçının Ermənistan işğalından azad edilməsinin dördüncü ildönümü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda qeyd olunub: "Zəfər tariximiz - Laçının Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

# Azərbaycan-BƏƏ dövlətlərarası münasibətləri dinamik inkişaf etməkdədir

## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana

Əlahəzrət!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Birləşmiş Ərəb Əmirlikləri Sizin rəhbərliyiniz altında böyük uğurlara imza ataraq dünyanın inkişaf etmiş və böyük nailiyyətlər qazanmış ölkələrindən birinə çevrilmişdir.

Qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək üzərində qurulmuş Azərbaycan-BƏƏ dövlətlərarası münasibətləri hazırda dinamik və hərtərəfli inkişaf etməkdədir. Fəal siyasi dialoqumuz bütün sahələrdə əməkdaşlığımızı daha da genişləndirmək üçün yaxşı zəmin yaradır. Cari il ərzində Sizin Azərbaycana həyata keçirdiyiniz iki səfər qardaşlıq münasibətlərimizin yüksək səviyyəsindən xəbər verir.

Son dövrdə ölkələrimiz arasında münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, əməkdaşlığımızın inkişafında yeni istiqamətlər müəyyən edilmişdir. Enerji sektorunda, xüsusilə də "yaşıl enerji" sahəsində atdığımız önəmli addımlar məmnunluq doğurur. Bu xüsusda ölkənizin "Masdar" şirkətinin bərpaolunan enerji sahəsində Azərbaycandakı səmərəli fəaliyyətini ayrıca vurğulamaq istərdim.

Eyni zamanda Azərbaycanın COP29 sədrliyi ilə BƏƏ-nin COP28 sədrliyi arasında təşəkkül tapmış uğurlu əməkdaşlıq münasibətlərini təqdir edir, ölkələrimizin bundan sonra da iqlim fəaliyyətinin irəli aparılması istiqamətində birgə çalışacağına inamımı ifadə edirəm.

Əminəm ki, Azərbaycan-BƏƏ dostluğunun və etibarlı tərəfdaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın həm ikitərəfli, həm də çoxtərəfli əsaslarda genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405 (Cild I); 2024, № 4, maddə 370) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 16-cı maddə üzrə:

1.1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tətbiq edilməsi və bələdiyyə iclasının iclas zalında bilavasitə iştirak etməklə keçirilməsini mümkünsüz edən digər hallarla əlaqədar bələdiyyə iclasları həmin dövr üçün videokonfrans əlaqə sistemi vasitəsilə keçirilə bilər.";

1.1.2. 2-ci hissənin dördüncü cümləsində "onun səlahiyyətlərini həyata keçirən müavini" sözləri "sədr vəzifəsini icra edən şəxs" sözləri ilə əvəz edilsin;

1.1.3. 5-ci hissənin birinci cümləsində "onun müavini" sözləri "sədr vəzifəsini icra edən şəxs" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 16-1-ci maddə əlavə edilsin:

**"Maddə 16-1. Yeni seçilmiş bələdiyyənin ilk iclasının keçirilməsi**

Yeni seçilən bələdiyyənin ilk iclası Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən bələdiyyə seçkilərinin yekunları elan edildikdən sonra 5 iş günü müddətində keçirilir.

Bələdiyyənin ilk iclasında bələdiyyənin sədri seçilənədək yaşı daha çox olan üzv iclasa sədrlik edir.

İclasa sədrlik edən bələdiyyəyə üzv seçilmiş şəxslərin siyahısını elan edir, ilk iclası bələdiyyə sədri və iclas katibi seçilənədək aparır.

Bələdiyyənin sədri açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur.

Bələdiyyənin ilk iclasında bələdiyyə sədri və iclas katibi seçildikdən sonra iclasın gündəliyi təsdiq edilir.";

1.3. 17-ci maddənin 1-ci hissəsində "bələdiyyənin tabeliyində olan müəssisə, idarə və təşkilatların" sözləri "bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

1.4. 19-cu maddə üzrə:

1.4.1. 1-ci hissə ləğv edilsin;

1.4.2. 3-cü hissəyə "Bələdiyyənin sədri" sözlərindən sonra "(və ya sədr vəzifəsini icra edən şəxs)" sözləri əlavə edilsin və həmin hissədə "1-ci və 2-ci bəndlərində" sözləri "2-ci hissəsində və bu Qanunun 16-1-ci maddəsinin 4-cü hissəsində" sözləri ilə əvəz edilsin;

1.5. 30-cu maddənin 2-ci hissəsi üzrə:

1.5.1. birinci abzasda "vətəndaşların müraciətlərinə mahiyyəti üzrə bir ay ərzində cavab verməlidirlər" sözləri "tərəfindən fiziki və hüquqi şəxslərin müraciətlərinə "Vətəndaşların müraciətləri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunları, inzibati icraatla bağlı müraciətlərə isə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada baxılır" sözləri ilə əvəz edilsin;

1.5.2. ikinci abzasda "10 gün" sözləri "15 iş günü" sözləri ilə əvəz edilsin;

1.6. 33-cü maddə üzrə:

1.6.1. 1-ci hissədə "bələdiyyə müəssisələri və təşkilatları" sözləri "bələdiyyəyə məxsus hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

1.6.2. 3-cü hissədə "özəlləşdirilən" sözü "özgəninkiləşdirilən" sözü ilə əvəz edilsin;

1.6.3. 5-ci hissənin birinci cümləsində "özəlləşdirilməsi" sözü "özgəninkiləşdirilməsi" sözü ilə, ikinci cümləsində "özəlləşdirilməsindən" sözü "özgəninkiləşdirilməsindən" sözü ilə əvəz edilsin;

1.7. 40-cı maddənin 1-ci hissəsində "özəlləşdirilməsindən" sözləri "özgəninkiləşdirilməsindən" sözləri ilə, "bələdiyyə müəssisə, idarə və təşkilatlarının" sözləri "bələdiyyələrə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

1.8. 41-ci maddənin 4-cü hissəsində "Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların" sözləri "Bələdiyyəyə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin;

1.9. 48-ci maddənin birinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bələdiyyələr (bələdiyyə sədrləri və ya sədr vəzifəsini icra edən şəxslər) qərar qəbul etdiyi tarixdən 3 iş günü ərzində həmin qərarı elektron sənəd formasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirməlidirlər.";

1.10. 52-2-ci maddə üzrə:

1.10.1. 1-ci hissədə "Məclisinə" sözündən sonra "aprel ayının 1-dək" sözləri əlavə edilsin;

1.10.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik maliyyə hesabatını bələdiyyə iclasına təqdim edirlər. Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları növbəti il yanvarın 30-dək təqdim edilməlidir. Bələdiyyələr təqdim edilmiş maliyyə hesabatlarını bələdiyyə iclasının qərarı ilə 15 gün müddətində təsdiq edirlər.";

1.10.3. 3-cü hissə üzrə:

1.10.3.1. birinci abzasın birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu maddənin 1-ci və 2-ci hissələrində nəzərdə tutulan hesabatlardan başqa, bələdiyyə hər ilin yanvar ayının üçüncü həftəsi ərzində əvvəlki il üzrə görülmüş işlər haqqında, o cümlədən bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verir.";

1.10.3.2. birinci abzasın üçüncü cümləsində "hesabat" sözü "bu maddənin 2-ci və 3-cü hissələrində nəzərdə tutulan hesabatlar" sözləri ilə əvəz edilsin;

1.10.3.3. ikinci abzasın birinci cümləsi çıxarılsın;

1.10.4. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Bu maddədə göstərilən hesabatlar bələdiyyə iclasında təsdiq edildikdən dərhal sonra qərara əlavə olunaraq inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirilir.".

**Maddə 2.** "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 6, maddə 268 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6-cı maddə üzrə:

2.1.1. 6.1-ci maddədə "aktların bir surətini həmin aktların qəbul edildiyi andan 5 iş günündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidirlər" sözləri "aktları qəbul edildiyi tarixdən 3 iş günündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində (bundan sonra - informasiya sistemi) yerləşdirməlidirlər" sözləri ilə əvəz edilsin;

2.1.2. 6.2-ci maddədə "daxil olduğu" sözləri "informasiya sistemində yerləşdirildiyi" sözləri ilə əvəz edilsin, həmin maddəyə "günü" sözündən sonra ", əlavə araşdırma tələb olunarsa, 30 iş günü" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcraat zamanı əlavə məlumatların və ya sənədlərin əldə edilməsi tələb edildikdə, inzibati nəzarəti həyata keçirən orqanın həmin müddəti 30 iş günü uzatmaq hüququ vardır.";

2.2. 7-ci maddə üzrə:

2.2.1. 7.3.1-ci maddədə "tutulmuş" sözündən sonra "qaydada" sözü əlavə edilsin;

2.2.2. 7.3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.3.2. inzibati nəzarət icraatına başlamaqdan imtina edir və bu barədə müraciət edənə əsaslandırılmış rəsmi məlumat göndərir.";

2.3. 8-ci maddə üzrə:

2.3.1. 8.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.1. İnzibati nəzarət icraatı bu Qanunun 5.0.1-ci maddəsi ilə müəyyən edilən əsas üzrə aparıldıqda, inzibati nəzarət icraatının başlanma tarixi bələdiyyə aktının informasiya sistemində yerləşdiyi gündən hesablanır.

Bu Qanunun 5.0.1-ci maddəsi ilə müəyyən edilən əsas üzrə inzibati nəzarət icraatı bu Qanunun 8.1-ci maddəsinin üçüncü abzası nəzərə alınmaqla informasiya sistemi vasitəsilə həyata keçirilir.

İnzibati nəzarəti həyata keçirən orqan bu Qanunun 5.0.1-ci və 5.0.2-ci maddələri ilə müəyyən edilən əsaslar üzrə inzibati nəzarət icraatı zamanı mübahisə doğuran bələdiyyə aktının və bu aktın qəbul edilməsi ilə bağlı əlavə sənədlərin və ya məlumatların ona göndərilməsi barədə müvafiq bələdiyyəyə müraciət edir. Bələdiyyə həmin sənədləri və ya məlumatları sorğunu aldığı tarixdən 3 iş günü ərzində, həmin sənədlərin və ya məlumatların əldə edilməsi əlavə zaman tələb etdiyi halda isə 10 iş günü ərzində inzibati nəzarəti həyata keçirən orqana informasiya sistemi vasitəsilə təqdim edir.";

2.3.2. 8.3-cü maddənin birinci cümləsində "müraciətin araşdırılması" sözləri "inzibati nəzarət icraatı" sözləri ilə, "aşkar" sözü "müəyyən" sözü ilə əvəz edilsin;

2.3.3. 8.4-cü maddə üzrə:

2.3.3.1. birinci cümlədə "bu Qanunun 5.0.1-ci maddəsində nəzərdə tutulmuş hallarda və ya daxil olmuş müraciətin araşdırılması" sözləri "inzibati nəzarət icraatı" sözləri ilə, "aşkar" sözü "müəyyən" sözü ilə, "müraciət" sözü "təklif təqdim edərək informasiya sistemində müvafiq aktın qarşısında qeyd" sözləri ilə əvəz edilsin;

2.3.3.2. ikinci cümlədə "müraciətə" sözü "təklifə" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2024-cü il*

# Laos Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Thonqlun Sisulitə

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Laos dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Cari ilin oktyabrında Sizinlə Kazanda səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşümüzü ən xoş təəssüratlarla xatırlayıram.

İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə dostluq əlaqələrimizin inkişafına, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Fürsətdən istifadə edərək Sizi Azərbaycana səfərə dəvət edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934; Azərbaycan Respublikasının 2024-cü il 8 oktyabr tarixli 45-VIIQD nömrəli Qanunu) 164.1.20-ci maddəsində "qurumun" sözü "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2024-cü il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 58-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 58-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.20-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 58-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.7-ci bəndə "164.1.7-ci," sözlərindən sonra "164.1.20-ci," sözləri əlavə edilsin;

3.2. 1.47-ci bənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2024-cü il*

# "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 48-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və 52-2-ci maddəsinin 3-1-ci hissəsində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur;

1.2. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci, 6.2-ci maddələrində, 8.1-ci maddəsinin ikinci və üçüncü abzaslarında və 8.4-cü maddəsində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nə uyğun olaraq, "Bələdiyyələrlə iş" informasiya sistemi haqqında əsasnaməni üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 49-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə "Bələdiyyələrlə iş" informasiya sisteminin informasiya təhlükəsizliyinin təmin olunması üçün zəruri tədbirlər görsün;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

4.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə "Bələdiyyələrlə iş" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

4.2. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, "Bələdiyyələrlə iş" informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

5. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 424 (Cild I); 2024, № 4, maddə 383) 3.6-cı bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.7-ci bənd əlavə edilsin:

"3.7. həmin Qanunun 48-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və 52-2-ci maddəsinin 3-1-ci hissəsində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.".

6. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 922 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 473 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2. həmin Qanunun 3.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.3. həmin Qanunun 6.1-ci, 6.2-ci maddələrində, 8.1-ci maddəsinin ikinci və üçüncü abzaslarında və 8.4-cü maddəsində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.".

7. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 21 dekabr tarixli 792 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1266 (Cild I) ilə təsdiq edilmiş "Bələdiyyələrin Nümunəvi Reqlamenti"ndə aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissə üzrə:

7.1.1. 2.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tətbiq edilməsi və bələdiyyə iclasının iclas zalında bilavasitə iştirak etməklə keçirilməsini mümkünsüz edən digər hallarla əlaqədar bələdiyyə iclasları həmin dövr üçün videokonfrans əlaqə sistemi vasitəsilə keçirilə bilər.";

7.1.2. 2.5-ci bəndin birinci və üçüncü cümlələrində "onun müavini" sözləri "sədr vəzifəsini icra edən şəxs" sözləri ilə əvəz edilsin;

7.1.3. 2.12-ci bəndin ikinci cümləsi üçüncü cümlə hesab olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bələdiyyələr (bələdiyyə sədrləri və ya sədr vəzifəsini icra edən şəxslər) qərar qəbul etdiyi tarixdən 3 (üç) iş günü ərzində həmin qərarı elektron sənəd formasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində yerləşdirməlidirlər.";

7.2. 4-cü hissə üzrə:

7.2.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.1. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən bələdiyyə seçkilərinin yekunları elan edildikdən sonra 5 (beş) iş günü müddətində yeni seçilən bələdiyyənin ilk iclası keçirilir. Bələdiyyənin ilk iclasında bələdiyyənin sədri seçilənədək yaşı daha çox olan üzv iclasa sədrlik edir. İclasa sədrlik edən bələdiyyəyə üzv seçilmiş şəxslərin siyahısını elan edir, ilk iclası bələdiyyə sədri və iclas katibi seçilənədək aparır. Bələdiyyənin sədri açıq və ya gizli səsvermə yolu ilə seçilir. Bələdiyyənin sədri bələdiyyə üzvlərinin yarısından çoxunun səsini topladıqda seçilmiş hesab olunur. Bələdiyyənin ilk iclasında bələdiyyə sədri və iclas katibi seçildikdən sonra iclasın gündəliyi təsdiq edilir.";

7.2.2. 4.2-ci bənddə "bələdiyyənin tabeliyindəki müəssisə, idarə və təşkilatların" sözləri "bələdiyyəyə məxsus hüquqi şəxslərin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2024-cü il*

# YAP İdarə Heyətinin iclası keçirilib





**Dekabrın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanın daha bir mühüm ictimai-siyasi proses ərəfəsində olduğunu qeyd edib. "Məlum olduğu kimi, 2025-ci il yanvarın 29-da ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcək. Siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası indiyədək bütün seçkilərə yüksək səviyyədə hazırlaşıb və inamlı qələbələrə imza atıb. Xalqın etimadını layiqincə doğruldan YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır", - deyən Tahir Budaqov bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsinin hər biri üzrə Yeni Azərbaycan Partiyasının öz namizədlərini irəli sürəcəyini diqqətə çatdırıb.

Daha sonra iclasın gündəliyində olan məsələlər haqqında məlumat verilib.

İclasda ilk olaraq "Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı" müzakirə edilərək təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyasının 19 nəfərdən ibarət Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub.

İdarə Heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi, həmçinin səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər təyin edilib.

Daha sonra YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri - Arif Rəhimzadə, Hikmət Məmmədov, Mübariz Qurbanlı və Aynur Sofiyeva çıxış edərək seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs ediblər.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinin də mütəşəkkil həyata keçirilməsi üçün partiyanın bütün resurslarının cəlb olunacağına əminliyini ifadə edib və bu prosesdə iştirak edəcək partiya üzvlərinə müvəffəqiyyətlər arzulayıb.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Anlaşma memorandumu imzalanıb

**Dekabrın 2-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və icmalar naziri Karlos Pinto Pereiranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**







Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ceyhun Bayramov və Karlos Pinto Pereira arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Geniştərkibli görüşdə Azərbaycan və Qvineya-Bisau arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, siyasi, iqtisadi, humanitar, turizm, energetika və digər sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olunub.

Ceyhun Bayramov ölkələrimiz arasında qarşılıqlı təmasların, o cümlədən ali və yüksəksəviyyəli səfərlərin əməkdaşlığımızın inkişafında vacib rolundan bəhs edib. Bu istiqamətdə Qvineya-Bisau Prezidentinin ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Azərbaycana səfəri, habelə səfər zamanı iki ölkə başçısı arasında baş tutan görüşün əhəmiyyəti qeyd olunub.

Ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi baxımından siyasi məsləhətləşmələr mexanizminin işlək vəziyyətə gətirilməsinin vacibliyi diqqətə çatdırılıb. İqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, təbii ehtiyatların işlənməsi və dövlət xidmətlərinin təmini üzrə təcrübə mübadiləsi, habelə təhsil və təlimlərin təşkili sahələrində əməkdaşlıqda təqaüd proqramları və imkanlarından istifadənin zəruri olduğu vurğulanıb. Xüsusilə vətəndaşlara göstərilən dövlət xidmətləri sahəsində "ASAN xidmət" modelinin tətbiqi üzrə əməkdaşlığa hazır olduğumuz diqqətə çatdırılıb.

Azərbaycanın Afrika qitəsi ölkələri, o cümlədən Qvineya-Bisau ilə əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verdiyi qeyd olunub. Bu istiqamətdə, xüsusilə ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın təşəbbüsü ilə qəbul olunan "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamənin, habelə Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərini pandemiyadan sonrakı dövrdə dəstəkləmək istiqamətində elan olunan iki çağırışın əhəmiyyəti diqqətə çatdırılıb.

Çoxtərəfli platformalar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində ümumi maraqlarımızın irəlilədilməsi istiqamətində birgə fəaliyyətin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

C.Bayramov həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma və sülh gündəliyi barədə məlumat verib.

Daha sonra Ceyhun Bayramov və Karlos Pinto Pereira Azərbaycan Respublikası ilə Qvineya-Bisau Respublikası arasında siyasi məsləhətləşmələrə dair anlaşma memorandumunu imzalayıblar.

Yekunda nazirlər görüşün nəticələrinə dair təşkil olunmuş mətbuat konfransında bəyanatla çıxış ediblər.

# İnkişafın etibarlı maliyyə təminatı

## Bu gün parlament dövlət büdcəsinin layihəsini ikinci oxunuşda müzakirəyə çıxarır

**Milli Məclisin bu gün keçiriləcək iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılacaq. Xatırladaq ki, parlamentdə ötən həftə keçirilən müzakirələr zamanı deputatlar gələn ilin büdcə layihəsinin proqnoz göstəricilərini yüksək qiymətləndirmiş, dövlətimizin qarşısında dayanan əsas çağırışları nəzərə almaqla tərtib olunduğunu bildirmişdilər.**

### Azərbaycan büdcənin gəlir və xərclərinə görə Cənubi Qafqazda birincidir

Azərbaycanın inkişafına paralel olaraq dövlət büdcəsi də ildən-ilə böyüyüb, ötən 21 ildə gəlir və xərcləri dəfələrlə artıb. Uzun illərdir ki, Cənubi Qafqazda bütün məsələlərdə lider olan respublikamızın büdcəsi də gəlir və xərclərinə görə birincidir. Bir faktı qeyd edək ki, növbəti il üçün proqnozlaşdırılan büdcə xərcləri 2003-cü illə müqayisədə 34 dəfə çoxdur.

Büdcənin ildən-ilə artımı isə ilk növbədə respublikamızın qarşısında dayanan prioritet vəzifələrin uğurla icra olunmasını təmin edib. Təsadüfi deyil ki, hər il dövlət büdcəsi tərtib olunarkən vacib məsələlərin maliyyələşdirilməsinə daha çox diqqət yönəldilir. Sosial və investisiyayönümlülüyə üstünlük vermək, dövlətin müdafiə qabiliyyətini daha da gücləndirmək, vətəndaşların sosial rifahını yüksəltmək, iqtisadi, enerji, ərzaq və ekoloji təhlükəsizliyini möhkəmləndirmək, idxaldan asılılığı minimuma endirmək, regionların dinamik, sosial-iqtisadi inkişafını təmin etmək dövlət büdcəsinin prioritet vəzifələridir.

Reallıq da ondan ibarətdir ki, hər bir il üçün tərtib olunmuş dövlət büdcəsi, sözün bütün mənalarında, Azərbaycan dövlətinin milli maraqlarını, iqtisadi təhlükəsizliyini, sosial məqsədlərini təmin edib. Büdcə layihələrinin hazırlanması zamanı qlobal maliyyə bazarlarında baş verən neqativ meyillər də diqqətlə təhlil olunur, risklər nəzərə alınır. Bu baxımdan dövlət büdcəsinin gəlirlərinin formalaşmasında və digər istiqamətlərdə hər hansı problem meydana çıxmır.

### Gəlirlər 5,3 faiz artır

Gələn ilin dövlət büdcəsinin göstəriciləri ilk növbədə Prezident İlham Əliyevin uğurlu iqtisadi siyasətinin, respublikamızda həyata keçirilən islahatların effektiv nəticəsinin göstəricisidir. Belə ki, gələn il büdcəmizin gəlirləri 38,3 milyard manat proqnozlaşdırılır. Bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 5,3 faiz çoxdur. Qeyd edək ki, 5,3 faizlik artım sıradan yox, mühüm iqtisadi hadisədir. Nəzər yetirsək görərik ki, büdcə gəlirlərindən bu cür artım heç də hər dövlətə müyəssər olan məsələ deyil. Bu, respublikamızın iqtisadi inkişafının ən mühüm göstəricilərindən biridir.

2025-ci ildə büdcəmizin xərcləri 41 milyard 367 milyon manat olmaqla, bu ilin proqnozu ilə müqayisədə 4,1 faiz çox planlaşdırılır. Xərclərin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Onu da qeyd edək ki, Azərbaycanın 2025-ci il üçün gözlənilən büdcə xərcləri Ermənistanın və Gürcüstanın birlikdə büdcə xərclərinin cəmindən 1,3 dəfə çoxdur.

Ötən illərdə olduğu kimi, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaqdır. Sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Büdcə zərfinə daxil olan sosial paketin təhlili göstərir ki, şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcək.

### Əsas çağırışlar 2025-ci ildə də prioritet olacaq

Ötən illərdə olduğu kimi, 2025-ci ildə də dövlətimizin qarşısında dayanan əsas çağırışlar büdcənin prioritetləri olaraq qalacaq. Bunlardan biri müdafiə xərcləridir. Gələn ilin büdcə layihəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulmuşdur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur. Ermənistanın sürətlə silahlandırıldığı, mütəmadi olaraq Fransa və Hindistandan müxtəlif hərbi texnikalar aldığı bir dövrdə Azərbaycanın müdafiə məsələlərinə xüsusi həssaslıqla yanaşması, hərbi büdcəsini artırması tamamilə təbiidir. Heç bir halda Ermənistanın hərbi üstünlüyünə imkan vermək olmaz. Azərbaycan revanşizm xülyası ilə yaşayan Ermənistan üzərində bundan sonra da əzici hərbi üstünlüyə malik olacaq.

Artıq bir neçə ildir ki, dövlətimizin əsas çağırışlarından biri Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır. Hər il dövlət büdcəsi tərtib olunarkən bu məsələ xüsusi diqqət mərkəzində saxlanılır, azad edilmiş ərazilərimizin yenidən qurulmasına yetərincə vəsait ayrılır. Milli ideyaya çevrilmiş bu məqsəd üçün növbəti il 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur.

2025-ci il üçün dövlət büdcəsi də Prezident İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi kursun ardıcıl surətdə davam etdirilməsini, əsas dövlət və sosial vəzifələrin uğurla həyata keçirilməsini, qarşıda duran prioritet inkişaf hədəflərinə doğru irəliləyişi maliyyə baxımından təmin edəcək.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

# Siyasi məsləhətləşmələr aparılıb

**Dekabrın 2-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Venesuelanın xarici işlər üzrə xalq hakimiyyəti nazirinin müavini Tatiana Puq Moreno ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Venesuela arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər, iqtisadi-ticarət, energetika, turizm, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələri üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub.

İki ölkə arasında intensiv siyasi dialoqun mövcudluğunun, habelə müxtəlif səfərlər və beynəlxalq tədbirlər çərçivəsində aparılan təmasların məmnunluq doğurduğunu qeyd edən nazir Ceyhun Bayramov belə müzakirələrin müxtəlif sahələr üzrə konkret planların müəyyənləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstəyə və həmrəyliyə əsaslanan əməkdaşlığımızın məmnunluq doğurduğu, çoxtərəfli platformalar çərçivəsində əlaqələrin daha da gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

2025-ci ildə Azərbaycan ilə Venesuela arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd ediləcəyi, bu istiqamətdə birgə təşəbbüs və tədbirlərin həyata keçirilməsi imkanlarının nəzərdən keçirilməsinin faydalı olacağı bildirilib.

Tatiana Puq Moreno Azərbaycanı ötən ay COP29-a uğurlu evsahibliyi, sözügedən tədbirin yüksək səviyyədə təşkili münasibətilə təbrik edib, konfransın yekunlarının iqlim dəyişikliyi ilə mübarizə səylərinə mühüm töhfələrdən biri olduğunu deyib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nazir müavini Tatiana Puq Morenonun ölkəmizə səfəri çərçivəsində, həmçinin Azərbaycan Respublikası ilə Venesuela Bolivar Respublikasının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti - 2-ci raundu keçirilib.

Məsləhətləşmələr zamanı Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfin nümayəndə heyətinə isə Venesuelanın xarici işlər üzrə xalq hakimiyyəti nazirinin müavini Tatiana Puq Moreno rəhbərlik ediblər.

Siyasi məsləhətləşmələr çərçivəsində Azərbaycan ilə Venesuela arasında ikitərəfli və çoxtərəfli münasibətlərin perspektivləri, əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində gələcək planlar, birgə təşəbbüslər, habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

# Ceyhun Bayramov Gürcüstanın keçmiş və yeni xarici işlər nazirləri ilə telefonla danışıb




Xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın keçmiş xarici işlər naziri İlya Darçiaşvili arasında telefon danışığı baş tutub.

AZƏRTAC Xarici İşlər Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, nazir Ceyhun Bayramov İlya Darçiaşvilinin Gürcüstanın xarici işlər naziri vəzifəsində çalışdığı müddətdə iki ölkənin yüksəksəviyyəli və qarşılıqlı faydalı əməkdaşlığının daha da möhkəmləndirilməsi və beynəlxalq müstəvidə əməkdaşlığın genişləndirilməsi naminə birgə səyləri məmnunluqla vurğulayıb və qarşı tərəfə təşəkkürünü ifadə edib. Nazir Ceyhun Bayramov İlya Darçiaşviliyə uğurlar arzulayıb.

Azərbaycanla Gürcüstanı mehriban qonşuluq və tarixi dostluq əlaqələrinin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq münasibətlərinin birləşdirdiyi vurğulanıb.

* * *

Xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın yeni təyin edilmiş xarici işlər naziri Maka Botçorişvili arasında telefon danışığı baş tutub.

AZƏRTAC Xarici İşlər Nazirliyinin yaydığı məlumata istinadən xəbər verir ki, nazir Ceyhun Bayramov Gürcüstanın yeni qurulmuş hökumətində xarici işlər naziri təyin edilməsi münasibətilə həmkarını təbrik edib və ona bu şərəfli vəzifəsində uğurlar arzulayıb.

Tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyətini və gələcəkdə bu əlaqələrin daha da inkişafı istiqamətində mövcud planlar və perspektivləri müzakirə ediblər. Ölkələrimiz arasında ali və yüksək səviyyədə mövcud siyasi dialoqun, baş tutan intensiv səfərlərin, siyasi məsləhətləşmələr mexanizminin, strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsinə töhfə verdiyi vurğulanıb.

Nazirlər həmçinin regional məsələləri və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq istiqamətləri ətrafında fikir mübadiləsi aparıblar.

# SOCAR tərəfindən Slovakiyaya qaz təchizatına başlanılıb

Dekabrın 1-dən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan SPP şirkətinə qaz təchizatına başlanılıb.

Şirkətdən AZƏRTAC-a bildiriblər ki, qaz təchizatı SOCAR və SPP arasında qısamüddətli pilot müqavilə əsasında reallaşdırılan əməkdaşlıq çərçivəsində həyata keçirilir. Şirkətlər daha uzunmüddətli enerji tərəfdaşlığını inkişaf etdirməyi hədəfləyirlər.

Bu qaz təchizatları sayəsində SOCAR öz ixrac istiqamətlərini şaxələndirməyə davam edir. Beləliklə, Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya və Şimali Makedoniya ilə birlikdə Slovakiya Azərbaycan qazını alan on ikinci ölkə olub.



# QƏRBİN "MÜASİR İNSAN" MODELİ

## Azərbaycan Avropadan fərqli olaraq COP29-da bəşəriyyətin gələcəyini, xalqların rifahını düşündüyünü nümayiş etdirdi

**Dünyada nə qədər insan varsa, bir o qədər də fikir var - belə söyləyirlər.**

**Yəni eyni hadisə, eyni məsələ barədə hər fərdin öz fikri, öz yanaşması, öz dəyərləndirməsinin olması təbiidir.**

Bunlar üst-üstə düşə də bilər, düşməyə də.

Bu, insanların dünyagörüşündən, biliyindən, həyat təcrübəsindən və digər amillərdən asılıdır.

Misal üçün, gözələ münasibətə, gözəllik anlayışına yanaşmaya nəzər salaq.

Estetika aləmində indiyədək mübahisə doğuran və hələ də tam cavabı olmayan suallardan biri budur: həqiqi gözəl necə olmalıdır, onun əlamətləri hansılardır?

Hər xalqın, hər millətin öz gözəllik etalonu var.

*İrqindən, millətindən, ümumi inkişaf səviyyəsindən, tərbiyəsindən və dünyagörüşündən, milli adət-ənənələrindən, habelə fərdi psixologiyasından asılı olaraq hərənin beynində öz gözəl "modeli" olur.*

Odur ki, bütün millətlər və xalqlar Afroditanı gözəllik etalonu kimi qəbul etmirlər.

Hətta "dünya gözəli" seçilənləri belə bəzən lağa qoyanlar, həmin titula layiq olmadığını söyləyənlər də az olmur.

Dəfələrlə hamı tərəfindən qəbul edilən "nümunəvi gözəl" obrazının yaradılması da uğursuz alınmışdır.

❖ ❖ ❖

İkinci uğursuzluğa sovet hakimiyyəti düçar oldu.

Kommunizm yeni ictimai-iqtisadi formasiya, imperializmdən sonrakı mərhələ elan olunmuşdu.

Bu sistemi özündən əvvəlkilərdən və başqalarından fərqləndirməkdən ötrü bir sıra prinsiplər müəyyənləşdirilmişdi.

Məsələn, bütün ictimai-iqtisadi formasiyalarda dini dünyagörüşü qəbul edilirdi və insanlar sərbəst sürətdə dini məbədlərə gedərək Allaha sitayiş edə bilərdilər.

SSRİ-də isə ateizm təbliğ olunur, sovet adamının Allaha inamı qadağan edilirdi.

Pionerin, komsomolun, Sov.İKP üzvünün kilsəyə, məscidə getməsi, Allaha inanması az qala vətənə xəyanət kimi qiymətləndirilir, hətta beləlri komsomol, partiya sıralarından xaric olunurdular.

**Müxtəlif millətlərə, dinlərə, adət-ənənələrə malik xalqları kommunizm ideologiyası ətrafında, sovet bayrağı altında birləşdirən SSRİ qırmızı imperiyanı əbədiliyə çevirmək, daim saxlamaq üçün yeni bir insan modeli - "sovet adamı" obrazı da yaratmışdı.**

Bu insanın başlıca xüsusiyyətləri "Sov.İKP-nın Proqramı"nda göstərilmiş, əlamətləri "Kommunizm qurucusunun əxlaq kodeksində" təsvir edilmişdir.

Hətta Sov.İKP-nin XXIV qurultayında Sov.İKP MK-nin baş katibi L.Brejnev "SSRİ-də insanların tarixi birliyinin" yeni formasının, "sovet xalqı"nın yarandığını bəyan etmişdi.

*Artıq bütün fərdiliklər, keçmiş ənənə və əlamətlər kənara qoyularaq yeni nəslin "tipik obrazı" formalaşdırılırdı.*

**Doğrudur, SSRİ-nın iflası ilə bütün bunlara son qoyuldu və bu gün "sovet xalqı" anlayışını təbəssümlə xatırlayırıq.**

❖ ❖ ❖

*Müasir Qərbin yaratdığı və dünyaya təqdim etmək istədiyi "Qərb düşüncəli insan" modeli də eyni şeydir.*

**Hər ikisində sünilik, güclünün maraqlarının təmini, fərdiliyin və fərqliliyin inkarı görünür.**

Əgər qırmızı imperiya dövründə öz vətəndaşlarına qarşı daha sərt, hətta bəzən qəddar davranan SSRİ istədiyinə nail ola bilmədisə, demokratik Qərb təsir, təhdid və təzyiq yolu ilə digər müstəqil dövlətlərdə "Avropa təfəkkürlü" insanlar nəsli tərbiyə edə bilərmi?

Bu istəyə düşənlərin eyni aqibətlə üzləşəcəkləri heç bir şübhə doğurmur!

Avropanın onunla bir sırada olmaq istəyənlər üçün yaratdığı "müasir insan modeli"nin əsas əlamət və tələbləri hansılardır?

**Avropalı özünü hamıdan ağıllı, bilikli, mədəni, inkişaf etmiş sayır.**

Olsun, bu əminlikdə müəyyən həqiqətlər də var.

Elə həmin həqiqətlərə görə insanlar və dövlətlər Avropaya, Avropa ilə əməkdaşlığa can atırlar.

*Təəssüf ki, Avropanın belə dövlətlərə və insanlara yanaşması bir çox halda özünün elan etdiyi dəyərlərə və prinsiplərə uyğun gəlmir.*

**Xüsusən də ayrı-seçkilik, ikili standartlı yanaşma, ədalət və humanizm prinsiplərinin tez-tez unudulması anlaşılan deyil!**

Təbii, bütün bunların Avropanın öz maraqlarının təmininə xidmət etdiyi aydın duyulur.

Lakin kor-kor, gör-gör: baş verən ədalətsizliklər, ikili yanaşma, ögey-doğmalıq göz önündədir.

MƏSƏLƏN:

* Avropada tolerantlığın adı var, özü yoxdur, başqa dini inanclılara kəm baxırlar, məscidlərə vaxtaşırı hücumlar baş verir, miqrantlarla amansız davranış, qayıqlarının batırılması adi hal sayılır.

* Ailə institutları aradan çıxdığından, eynicinslilərin evlənmələri adi hal aldığından və bu qanuni şəklə salındığından başqalarından da bunları tələb edirlər.

* Yəni milli adət-ənənələri unudun, bizim standart saydığımız qanunları siz də qəbul edin, LGBT-lərin sərbəst fəaliyyətinə şərait yaradın.

*Demokratiya sərbəst seçim, sərbəst düşüncə deməkdir.*

*Lakin digər ölkələrin vətəndaşlarını qrant vasitəsilə ələ alaraq mövcud iqtidarın kütləvi aksiyalarla devrilməsinə yönləndirilməsinin həmin demokratiyaya heç bir aidiyyəti yoxdur!*

*Bu, zorakılıqdır, qiyamdır!*

**Avropa isə bu üsuldan gen-bol istifadə edir, qanuni hakimiyyətini qəsdlərdən qoruyanları, qrant xatirinə dövlətə xəyanət edənləri cəzalandıranları isə haqsız sayır, onları qınayır, sanksiya ilə hədələyir.**

Gürcüstanda baş verən son hadisələri xatırlatmaq kifayətdir.

❖ ❖ ❖

**Maraqlıdır, görəsən, avropalılar niyə özlərini etalona çevirərək hamının onlara bənzəməli olduğu qənaətindədirlər?**

* Başqa sözlə, niyə asiyalı, afrikalı avropalıdan nümunə götürməlidir?

* Niyə koreyalı, çinli, yaponiyalı avropalıdan aşağı səviyyəli hesab olunmalıdır?

* Bu yanaşmanı, bu qiymətləndirməni kim "kəşf" edib?

*Hər xalqın özünün milli-mənəvi dəyərləri, özünəxas xüsusiyyətləri, adət-ənənələri vardır.*

Bunlar əsrlər boyu yaranmış, tarixin sınaqlarından keçmiş və yaşamaq hüququ qazanmışdır.

Həmin xalqlar niyə özlərininkidən əl çəkərək avropalınınkını qəbul etməlidirlər?

* Avropaya gələnlər avropalıların qanun və qaydalarını, dəyərlərini nəzərə alaraq onlara hörmətlə yanaşmalıdırlar.

* Avropaya gələnlər öz davranış və geyimlərini dəyişərək Avropasayağı geyinə bilərlər.

Elə tələblər var ki, başadüşüləndir:

* Avropaya gələnlər Avropa qaydalarına uyğun davranış nümayiş etdirməlidirlər.

*Amma onların tam dəyişmələri, özününkülərə arxa çevirərək tam avropalaşmaları absurddur.*

Onlardan bunu tələb etmək isə zorakılıq və qeyri-insani yanaşmadır.

**Tanrı dünyanı altı qitəyə bölərək onlardan beşinə həyat bəxş etmişdir.**

Hərə coğrafi mövqeyinə, iqliminə, mədəni inkişafına və s. baxaraq öz həyatını qurmuşdur.

*Ən əsası, insanlar ehtiyac duyduqları halda bir-birilərindən öyrənir, necə deyərlər, görüb-götürürlər.*

**Bunu tələbə, standarta çevirmək isə nə qədər ağıllı, məntiqli, humanizm cəhətdən doğrudur?**

Xüsusən də məqsəd xeyirxah niyyətdən xəbər vermirsə!

*Əslində, bu, üstüörtülü şəkildə, pərdələnmiş formada demokratiyanın pozulmasıdır.*

Öz iradəsini "demokratiya", "mədəniyyət", "sivilizasiya" adı ilə özgələrinə sırımaqdır.

*Etiraz etmirik, dünyanın digər yerlərində yaşayanlar Avropadan çox şey əxz ediblər, çox uğurundan bəhrələniblər və bu proses indi də davam edir.*

*Amma bütün bunlar könüllü şəkildə baş verib, faydalılığı dərk olunduğundan qəbul edilib!*

**Avropasayağı zorakılıq isə anlaşılan və qəbul edilən deyil!**

**Bu, heç Avropanın özünə də xeyir gətirməz!**

*Məgər Avropa öz dəyərlərini başqalarına havayı verib?*

* Bəs "geridə qalanlar" sırasına qatdıqlarından qazandıqları, onların təbii sərvətlərindən bəhrələnmələri?

* Bəs əsrlər boyu müstəmləkəçi kimi davranaraq xalqları istismar etmələri?

* Bəs müstəqil yanaşmaq, "mədəni dövlət" qurmaq fikrinə düşən koloniyalarında yaşayanları qırıb öldürərək itaətdə saxlamaları?

* Bəs "demokratik Fransa"nın bu gün də neokolonializm siyasətindən əl çəkməməsi, özgə sərvətlərini zorakılıqla mənimsəyərək əvəzində həmin xalqlara soyqırımları bəxş etməsi?

*Bu da nümunədir?*

*Bunlar da öyrənilməlidir?*

**Avropa İttifaqını yaradanlar yaramaz əməllərini davam etdirməkdən ötrü yeni formalar da tapıblar: xoşlarına gəlməyənlərə, onlara tabe olmayanlara təzyiq göstərməkdən ötrü "bəyanatlar", "qərarlar" "istehsal edir", özgə vaxtlarda saya salmadıqları "beynəlxalq hüququ" xatırlayaraq ona istinad edirlər, sanksiyalarla hədələyirlər.**

Guya digər qitələrdə yaşayanlar avropalıların bu oyunlarından baş çıxarmırlar?

QƏTİYYƏN!

Avropadakılar isə elə zənn edirlər ki, dünyadakı ağıllı insanların hamısı burada cəmləşib və qalan yerdə yaşayanlar ağlıdayazlardır.

Bu sayaq yanaşmanın özü ağılda, düşüncədə və münasibətlərdə ciddi problem və çatışmazlıqların mövcudluğundan xəbər verir.

**Necə deyərlər, biz sizə zorakılıq etmir, sizi özümüzə borclu saymırıq!**

**Siz də belə davranışı bizdən öyrənin, bizim kimi səbirli, təmkinli və ədalətli olmağı bacarın!**

Axı dediyimiz kimi, dünya gör-götür dünyasıdır, cənablar!

❖ ❖ ❖

*Bu gün seçkili qurum sayılan Avropa İttifaqı dövlətlərə necə fəaliyyət göstərməyi, insanlarla necə davranmağı öyrədir.*

*Özünün "icad etdiyi" qanunlar vasitəsilə.*

*Əslində, bu, Avropanın bir vaxtlar öz koloniyalarını zorakılıqla idarə etmələrinin mədəniləşdirilmiş formalarıdır.*

Diqqət yetirək:

Avropa İttifaqındakı başbilənlərin dediyi ilə oturub-duranda milyonlarla avro məbləğində yardım göstəriləcəyi vəd edilir.

Bir balaca cızıqdan çıxan kimi vəd olunan yardım kəsilir.

Avropanın müstəqil dövlətləri "əl quzusu"na çevirməyinin bir yolu da onlara ittifaqa üzv götürəcəyini vəd etməsidir.

Üzvlüyün arxasında isə məkrli niyyət dayanır.

Məsələn, keçmiş SSRİ-dən qopan respublikaların Avropa İttifaqına üzvlüyünün şərti onların Rusiyanın orbitindən çıxarılması, Rusiya ilə ziddiyyətə girməsi, onun əleyhinə fəaliyyət göstərməsidir.

Yaxud xalqın öz dəyərlərindən imtina edərək Avropa dəyər(sizlik)lərinə yiyələnməsini şərt kimi irəli sürmələridir.

**Burada isə məqsəd özünün yaratdığı "5-ci kolon"un sərbəst fəaliyyətinə imkan verilməsinə nail olmaqdır.**

*Bu isə həm də o deməkdir ki, istənilən vaxt həmin xəyanətkarlar vasitəsilə ölkələri qarışdıraraq hakimiyyət orqanlarına öz iradələrini qəbul etdirmək üçün real təsir aləti yaradırlar.*

**İpə-sapa yatmayanları isə "xalq inqilabı" vasitəsilə devirir, yerinə "özlərininki"ni gətirir, əslində, həmin dövləti "ən yeni müstəmləkə" şəklinə salırlar.**

❖ ❖ ❖

Avropalı özünü hamıdan üstün bilir, yüksək tutur.

Odur ki, miqrantlara, başqa dinə mənsub olanlara yuxarıdan aşağı, həqarətlə baxırlar.

Onların "insan haqları"nın pozulmasına adi hal kimi yanaşırlar.

İş yerləri, əməkhaqları verilməsində mənfi mənada fərqləndirirlər.

Rusiya Prezidenti V.Putini Ukrayna hadisələrinə görə "cinayətkar" sayaraq həbsinə qərar verən Avropa Cinayət Məhkəməsi Xocalı soyqırımı törədən Ermənistan prezidentləri olmuş Sarkisyanı və Koçaryanı işğalçı saymır, onlara qucaq açır.

**Avropanın bu oyunları nə onlara qoşulmaq istəyənlərə, nə də özlərinə xeyir gətirir.**

Ukraynanı şirnikləndirdilər, bu gün əvvəlki Ukraynadan yerdə nə qalıb və daha nə qalacaq aydın görünür.

Gürcüstanı yolundan etdilər, gürcü xalqı torpaq itkisinə, müxtəlif təlatümlərə məruz qaldıqdan sonra vaxtında ayıldı, müstəqilliyini, tarixi, milli ənənələrini daha yüksək tutduğunu əyani şəkildə göstərdi.

Bu gün baş verən müxtəlif hadisələrdə "demokratik" Avropanın əsl siması aydın görünür.

Artıq Avropa İttifaqına qəbulun bir oyun, tələ olduğunu hamı əyani şəkildə görərək dərk edir.

*Avropa İttifaqının özünün böhran keçirdiyi, ABŞ-nin əlində alət olduğu, üzvlərinin - Böyük Britaniyanın ona arxa çevirdiyi bir vaxtda bu quruma üzv olmaq naminə itkilərlə barışmaq mənasız və ağılsız hərəkətdir.*

**Bu gün Avropa bir vaxtlar özünün elan etdiyi dəyərlərdən özü geri çəkilir.**

**Yaratdığı qurumlar həmin dəyərlərə deyil, korrupsiyaya, beynəlxalq hüququn tapdalanmasına xidmət edir.**

*Azərbaycan COP29-u keçirməklə dünyanın ekoloji fəlakətlərdən xilasına, insanların rahat və təhlükəsiz yaşamalarına yeni töhfələrin verilməsi üçün real addımlar atdı.*

BMT-nin patronajlığı ilə keçirilən bu tədbir həm də Avropanın və Avropada yaşayanların maraqlarına xidmət etdi.

Lakin Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen tədbirə qatılmadı.

Dünya planeti ən çox çirkləndirən Avropa İttifaqından yeni iqlim maliyyəsi gözlədiyi halda məsuliyyətdən yayındı.

Avropa qurumlarına rəhbərlik edənlərin iç üzü budur!

Dünyanın ekoloji fəlakətlərə düçar olduğu bir zamanda insanları, planetin gələcəyini düşünmək əvəzinə fərdi korrupsiya maraqlarını üstün tuturlar.

**Azərbaycan tədbiri yüksək səviyyədə keçirərək bəşəriyyətin xilası və rifahı naminə gərəkli addımlar atdı, bu yolda səmərəli fəaliyyət göstərməyə çalışanları toparlamaqla başladığı işi uğurla sona çatdırdı.**

Avropa İttifaqı rəhbərliyinin növbəti addımı isə artıq Avropa dəyərlərinin də mənəvi aşınmaya uğradığından xəbər verir.

**Bəxtiyar SADIQOV**

# QƏLBİMİZİN QƏLBİSİ

***Y**olumuz - qibləmiz Şuşayadı...*

***Maşınımız da bizim kimi Şuşanın eşqinə şövqlə, coşquyla nərildəyir, yolu-irizi kəmənd eləyib belinə bağlayır ki, birdən dumanın-çənin içindəcə səsi boğula, təntiyə bilər...***

***Oğlum deyir ki, qalxdıqca çiskin lap çoxalır, elə bilirsən göylər, göy üzü yerə, dağa-dərəyə tərəf enib gəlir.***

***Təbəssümlə dönüb, ucsuz-bucaqsız Qarabağ çöllərinə, bərəkətli torpaqlara, yol-yamaca, barlı-bəhrəli yurd yerlərinə, öz insanı, öz balası üçün darıxan zəmilərə, tarlalara, dağlara, meşələrə pərçimlənmiş nurlu yollara baxıram, ürəyimdəcə "Yox - deyirəm oğluma, - bizi gətirən yollar dırmaşır dağlara, başı dumanlı-çənli yurdlara və biz də elə bu duman-çənin alaşıq-dolaşıq ətəyindən tutub bir xoş ümidlə gedirik"...***

***Qəlbimizin qibləsi – Şuşaya!..***



* Éàçû÷ûíûí éîë ãåéäëÿðè *

...Amma, heç nə demirəm, gözləri yol çəkən oğluma baxıram və fikirləşirəm ki, düşüncələrimiz eynidir, elə bil ki, azad Şuşanın göyləri bizə qucaq açıb səxavətlə aşağı enib gəlir, biz də qol qaldırıb, ucalar ucası Şuşaya qalxıb ziyarətə gedirik...

Nə gözəl!..

Dolanbac yollarda sevinc və həsrət bir-birinə qarışır, qəlbimizdə dilə gəlməz xoş ovqat yaradır...

Bu, göylərə bülənd olan Şuşamıza - qədim və müqəddəs şəhərimizə ikinci gedişimdir və yenə də həmin yolla gedirik...

Yolumuzu qəsdən burdan - Qırmızı Bazar tərəfdən salmışam ki, əvvəlki həsrətimə, duyğularıma son qoyulsun, ötən səfərimdən yadımda qalan fərqləri görə bilim...

Və nə yaxşı ki, belə etdik...

Birinci dəfə - onda Şuşa yenicə azad olmuşdu, yol-iriz indilərdə özünə gəlib nəfəs alırdı, təzə-təzə quruculuq işləri başlamışdı və cənab Prezidentimizin, hörmətli Mehriban xanımın xeyir-duası ilə "Xarıbülbül" festivalının ilk tədbirinə qatılırdıq...

Elə o vaxtlar, o qəsəbənin həndəvərindəcə rus əsgərləri maşın karvanımızı saxladıb, çox gözlətdilər ki, bəs nədi-nədi sülhməramlıların komandiri (?!) gəlməlidi, sənədlərimiz birər-birər yoxlanmalıdır, icazə veriləndən sonra (?!) yolumuza davam edib, öz dədə-baba yurdlarımıza gedə bilərdik.

Nəsə...

Sözüm onda deyil...

❖❖❖

O vaxtlar Şuşanın ətəyi, dərələr boyunca dədə-baba yurdlarımıza bit-birə kimi daraşmış ermənilər yolboyu bizə, azad yurdun qalib sakinlərinə necə həsrət və həsədlə baxırdılar.

Qara-qartıq, qoca-qarı, baxışları sozalan, boyunları bükülmüş, əlləri hər yerdən üzülmüş, üz-gözləri saralıb ərpimiş ermənilər...

Şamları sönmüş çıraq kimi...

Və hamımız bir ağızdan "Bunlar hələ buralardan rədd olub getməyiblər?!", - deyə gülüşürdük.

*İndisə... dünya, kainat, ayağımız altında yer üzü, başımız üstündə gen-bol göy üzü...*

*Azərbaycan, Qarabağ, Şuşa - qalibdir, azaddır, səfalıdır, nurludur...*

*Yerlə göyü bir-birinə çarpazlaşdırıb müqəddəs arzularımız kimi...*

**Ana və oğul kimi!...**

Yağılar, yadlar, düşmənlər sovulmuş bostan tağları kimi quruyub, çürüyüb, viranə qalmış, əzilib, tapdanıb, keçmişin qaranlığına qovuşub, ulu dağların, sirli dərələrin duman-çənində itbata düşüb, rədd olmuşdular...

Bakirə dağların uca bətnindən, yelliballı əmcəklərindən süzülüb gələn şehin, sel-suyun, qəzəbli tufana, küləyə qarışıb yad çəkmələrin, saxta nəfəslərin izini-tozunu itirmiş, yuyub yellərə qərq eləmişdi...

Gözüm tutunca dərin ümmanlara, göy qübbəsinin dərinliklərinə baxıram...

**Aman Allah!..**

**Yerlə göyün qovuşuğunda, yerlə göyün öpüşündə idi Şuşa!..**

Və biz də bu sevgiylə, bu coşquyla, qəlbi atlana-atlana bu müqəddəs məkana çatmağa tələsirik...

**Bu andaca nədənsə mənə elə gəldi ki, sanki, kainatın bu müqəddəs sevgisindən doğulan nurlu körpənin göbəkkəsdi nöqtəsində idi Şuşa!**

*Adam əl qaldırıb, dil uzadıb, güc yığıb, səsin-ünün yetincə, elə bu kainatın boyunca qışqırmaq istəyir...*

**Salam, Şuşa!**

**Əziz Şuşam!**

**Azad Şuşam!..**

❖❖❖

Yollar yolçunun belinə kəmənd dolayır, güc verib qaldırır, əhvalını saflaşdırır, ora, göylərin yeddi qatınacan - Şuşayacan dartıb aparır...

**Döngələr fırlandıqca, yollar dolanıb qalxdıqca elə bilirsən əl uzatsan, Şuşa ovcunun içindədi...**

**Amma görürsən ki, yox, Şuşa da qalxır, ucalır, öz müqəddəs zirvəsinə bələnir...**

*Sən çatdım deyirsən, qədim-qayım meşələrin, yeddi naxış düzlərin damarı kimi açılan dolanbac yollar elə hey qalxır...*

*Ərşə dirənir, uzanıb gedir, əlçatmaz, ünyetməz ucalarda əriyib itir, yenidən peyda olur, üzünə bərəkətli süfrə kimi açılır...*

*"Yorulma, gəl, ay Vətən oğlu" deyir, "qədəmlərin mübarək" deyir, gör neçə illərdi həsrətəm siz doğmalarımın gəlişinə...*

Yolboyu barı-bəhrəsi təzəcə sovulmuş bağ-bağat, al-qırmızı, sapsarı, min çeşidli meşələr, xınasını payızacan qoruyub saxlamış laləzar çöllər adamın ruhuna çökür.

Qızıl xınalı payızın şəninə tökülən xəzəllər şehini-damlasını canına hopdurub, öz doğma sahibinin gəlişinə şadyanalıq edirmiş kimi dayanmadan bu yurdların sahibinin xoş qədəmlərinə səpələnir, xoşallanırdı...

Bakirə dağların, sinə tağ düzlərin, barlı-bəhrəli çöllərin üstünə lağım atmış duman sağa-sola, eninə-boyuna dartınır...

Sanki sənə imkan verir ki, göylərin yeddi qatına ərməğan olmuş Şuşanı görə biləsən!

**Seçə biləsən!**

**Sevə biləsən!..**

❖❖❖

Yadıma salıram, o birinci səfərimizdəcə, soyuq-sazaq günlərdəcə, yola qış hazırlığı ilə çıxmış bizlər çaşıb qaldıq...

**Şuşanın al Günəşi - qəlbi atlanmış kimi yerə-yurda nur ələyirdi və o anlardaca ruhuma yazılan "Şuşanın Günəşi" adlı yol qeydlərimdə dediyim kimi...**

*"Sən demə, qədim-qayım yurduna qayıdan bu insanlardan, hamımızdan, hamımızdan daha çox sevinən elə uca **Şuşanın al Günəşiydi** və alovlanıb yeddi rəngli şəfəqləri ilə pişvazımıza çıxmışdı sanki..."*

**Şuşada nələr görmədik, nələr?**

Gecəsi-gündüzü bir-birinə qarışmış bu müqəddəs ocaqda hər yer tikinti, nəhəng bərpa və quruculuq meydanıdır...

Böyük qayıdışa nişan verən hasarlanmış rəngli reklam lövhələri, yaşıl şəkillər, cərgəsini tutub gedən ağaclar...

Milli ornamentini saxlayan daş hasarlar, yerə, ayaq altına salınmış sal-sal, çaytağ yer daşları, bir-birinə çiyin verib söykək olan küçələr...

Qaynaşan, amma növbə gözləyən sakit, intizamlı yük maşınları, haysız-küysüz kranlar...

Geyimli-keçimli, üzü nurlu, təbəssümlü inşaatçılar...

Saysız-hesabsız tikintilərin gedişinə, ağır yüklü maşınların hərəkətinə, basırıq olmamasına paralel kömək göstərib, əl tutan rəngli işıqforlar...

Hər cür kömək və qayğı göstərən, gecəsi-gündüzü olmadan dözümlə keşik çəkən, asayişi qoruyan sərvaxt polislər - əziz qardaşlarımız...

Qonaqların təəccübünə səbəb olan geniş və rahat hotellər, məhlələrə paylanmış inzibati binalar, hər cür rahatlığı, infrastrukturu olan, yenicə öz doğma sakinlərinin nəfəsiylə isinmiş yaraşıqlı yaşayış binaları...

**Və sevincdən qəlbi atlanan, gələnlərə, gedənlərə yarlı-yaraşıqlı eyvanlardan əl edib salamlayan qonaqpərvər şuşalılar...**



**Və hamının üz-gözündən, sözündən, dilindən Müzəffər Ali Baş Komandan İlham Əliyevə, hörmətli Mehriban xanıma əbədi minnətdarlıq duyğuları, duaları...**

❖❖❖

*Ənənəvi, tarixi həqiqətləri yaşadan, insan qəlbinə saf duyğular aşılayan məscidlərimiz, hər yerdən eşidilən, ruhuna hopub səsiylə səni də göylərə ucaldan müqəddəs azan səsləri...*

Qarabağın, Şuşanın adını tarixlərə həkk etdirən şəxsiyyətlərin ev-muzeyləri, etnoqrafik abidələr, ulu əcdadlarımızın ruhunu yaşadan ocaqlar...

Azərbaycanın qədim və məşhur şəcərəsindən olan Mehmandarovların ev-muzeyi...

Və yorulmadan, şövqlə bu tarixin səhifələrinə qəlbinin nurunu hopdurmuş bələdçilər, şəhər qoruğunun fədakar işçiləri, üzü-gözü nurlu, xoşovqatlı, qılıqlı, hər şeyi xırdalığına qədər izah edən savadlı, səbirli, təmkinli bələdçilər...

Şirin-şəkər bacılar, dəyanətli qardaşlar, dəyərli ziyalılar - hamısı da Şuşanın yenicə pənah gətirmiş sakinləri...

**Ya Rəbb! Qonaqpərvərlik, isti, şirin münasibət, sevgi və məhəbbət burda - qədim Şuşada dağa-bağa, yola-irizə, səkilərə, küçələrə, dalanlara, hər yerə, hər yerə elə çöküb ki...**

*Maşından düşən kimi hotellərin, qonaq evlərinin, istirahət məkanlarının ağzındaca pəsləyib, doğma insanlarını görcək ayağına yıxılıb xoşhallanan, nəvaziş göstərən, xoşqılıqlı məstan pişiklər...*

**Min cür palitralı, min cür kaloritli Şuşam!**

**Heç bilmirəm hansını qoyum, hansını yazım...**

❖❖❖

**Qayıdırıq...**

... Hamılıqla qərara gəldik ki, başqa bir yolla gedək, düşək Xankəndiyə, üzüaşağı, qədim yurdlarımıza ayaq açan təzə yollarla düşək...

**Yarlı-yaraşıqlı, öz füsunkar görünüşü ilə, xoş iqlimi, barlı-bərəkətli qara torpaqları ilə, doğma insanlarının əliylə yenicə salınmış parkları, küçələri sevincək qaynaşan sakinləri ilə bizi heyran qoyan Xankəndi!..**

**Tələbələrinə qucaq açmış və geniş bir ərazidə yuva salmış işıqlı və nurlu Qarabağ Universiteti...**

**Sevincək başımıza yığışmış doğma insanlarla çəkdirdiyimiz xatirə şəkilləri...**

**Nə qədər dost, tanış...**

Aman Allah!..

Və birdən... birdən həmin məqamdaca baxdıq ki, dumanı-çəni çəkilib getmiş, saf günəş şəfəqlərinə bülənd olmuş göy üzündə böyük bir durna qatarı peyda oldu...

Qatarlanıb, sonalanıb, səslənib, köklənib sərhəd bilmədən, dayanmadan, öz qafiləsiylə yellənib, şellənib gedirdilər.

**Hara gedirdilər və haracan gedəcəkdilər - bunu onlara bu göy üzünü, bu azadlığı bəxş edən Qoca Tarix bilərdi...**

**Sanki Böyük Yaradan bu yerlərə, bu qədim-qayım Qarabağ torpağına əzəl və özəl bir qələm çalmışdı...**

*Nəsə... Bu sonrakı mövzudur...*

**Gəlirik...**

*Yolboyu həyat qaynayır, sağı-solu tikinti meydançası, böyük və əzəmətli quruculuq işləri...*

*Dərələrə-təpələrə dağılmış, sayını-hesabını itirdiyim maşınlar, ekskavatorlar...*

***A**şağılara, dərələrboyu çölə-düzə sallanan yollar, səsi yurdu başına götürmüş texnikalar tarixin minillik sirrini özündə saxlayan yeddi qat sal daşları yatağında çeşid-çeşid rənglər yığılmış nəhəng qayaları, lay-lay süxurları dağıdıb əzir, çala-çuxura tökür, nəhəng və möhtəşəm yollar çəkir...***

***- Xocalı, Əsgəran, Ağdam - gəlib açılırıq Bərdə torpağına, sonra Yevlax və ... üzü Bakıya...***

***Oğlum deyir ki, adama nağıl kimi gəlir buralar, bu nədir, sanki göydən qalxdıq, yerdən çıxdıq, elə bil bir nağıl dünyasıdır Qarabağ, sirli-sehirli Qarabağ...***

***Maşında qəribə sükut...***

***Hamının gözləri yol çəkir, hamı Vətən sevgisiylə öz aləmində, xoş duyğular aləmində...***

***Mənsə...***

***Mənsə xoş təəssüratlarımı götür-qoy edir, ürəyimdə yazacağım ilkin yol qeydlərinin vergülünü axtarır, nöqtəsini qoymağa çalışıram...***

**İmamverdi İSMAYILOV,**
***Milli Məclisin deputatı, yazıçı***

*Bakı-Şuşa-Xankəndi-Bakı*








# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə dekabrın 2-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın noyabrın 26-da və 27-də keçirilmiş iclaslarının protokolları təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinin müzakirəsindən sonra sözügedən siyasi partiya tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Media mənsubları tərəfindən geniş işıqlandırılan iclasda həmçinin bələdiyyə seçkilərinə hazırlıq istiqamətində proseslərin gedişi barədə məlumat verilib və cari məsələlərə baxılıb.

QƏRAR № 50/242

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 26 noyabr və 27 noyabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 26 noyabr və 27 noyabr tarixli iclaslarının protokolları təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.12.2024*

QƏRAR № 50/244

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Murtuz İslam oğlu Əliyev 112 saylı Zaqatala seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

2. Mübariz Paşa oğlu Cabarov 60 saylı Quba - Qusar, Vüqar Lətif oğlu Bayramov 102 saylı Şəmkir şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.12.2024*

QƏRAR № 50/243

## 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Vətəndaş Həmrəyliyi Partiyası Siyasi Şurasının 2024-cü il 28 noyabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Samir Şakir oğlu Əsədli
Yusif Mətləb oğlu Xantemirov
Felmar Əli oğlu Ələkbərov
Nəsimi Çərkəz oğlu Şərəfxanlı
Aysel Xanlar qızı Səfərli
Nazlı Dadaş qızı Ağayeva
Abdulla Aydın oğlu Abdullayev
Ramiddin Oktay oğlu Qırxlarov
Əkbər Rafiq oğlu Şirinov
Daniel Zazayeviç Poladaşvili
Elçin Mahmudağa oğlu Nuriyev
Valentin Vaçikoviç Afatov
Seyhun Şakir oğlu Əsədli
Eldar Hüseynalı oğlu Cəfərov
Lətafət Arif qızı Həsənova
Yuriy Pavloviç Voronin
Samirə Şakir qızı Kərimova
Zaur Mitya oğlu Məmmədov
Elvin Kazım oğlu Həziyev
Zöhrab Vahid oğlu İsmayılov
Kənan Knyaz oğlu Həsənov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Səlahəddin Bərzani oğlu Əsgərov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*02.12.2024*

# Azərbaycan-Rusiya İşgüzar Şurasının iclası keçirilib



**Bakıda Azərbaycan-Rusiya İşgüzar Şurasının növbəti iclası keçirilib. Tədbirdə rəsmi şəxslərlə yanaşı, şuranın iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatı, maşınqayırma, neft-kimya, bank sektoru, logistika və digər sahələrdə fəaliyyət göstərən 90-dan artıq qurum və təşkilat üzvü iştirak edib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov iki ölkə arasında əməkdaşlığın inkişafını vurğulayıb, iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi kontekstində Azərbaycan-Rusiya İşgüzar Şurasının tərəfdaşlıq mexanizminin əhəmiyyətini qeyd edib.

Bildirilib ki, birgə investisiya layihələrinin həyata keçirilməsi və ikitərəfli ticarət potensialının reallaşdırılması istiqamətində görülən işlər işgüzar dairələr arasında əlaqələri daha da möhkəmləndirir ki, bu da hər iki ölkənin iqtisadi inkişafına töhfə verir. İki ölkənin biznes dairələri tərəfindən yaradılmış Azərbaycan-Rusiya İşgüzar Şurasının fəaliyyəti barədə məlumat verən Səməd Qurbanov qurum tərəfindən iki ölkə arasında ticarət və işgüzar əlaqələrin inkişafı, Azərbaycan biznes ictimaiyyətinin maraqlarının dəstəklənməsi istiqamətində görülən işlər barədə danışıb.

İclasın gündəliyinə uyğun olaraq, şuranın İdarə Heyətinə seçkilər keçirilib, Azərbaycan-Rusiya İşgüzar Şurasının İdarə Heyətinin sədri "Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov, sədrin müavinləri isə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və "Nardaran Invest" MMC-nin direktoru Qəmbər Bənənyarlı seçiliblər.

Şuranın yeni seçilmiş İdarə Heyətinin sədri Emin Ağalarov sahibkarlar arasında biznes-dialoqun intensivləşdirilməsi və hər iki ölkənin işgüzar dairələri üçün tərəfdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində şuranın fəaliyyətinin əhəmiyyətini qeyd edib.

Tədbirdə Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələrin inkişafına verdiyi töhfəyə görə Səməd Qurbanova Fəxri fərman təqdim edilib.

Qeyd edək ki, 2016-cı ildən fəaliyyət göstərən İşgüzar Şura Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi, Rusiya-Azərbaycan İşgüzar Şurası və iki ölkənin digər dövlət qurumları və müvafiq ictimai təşkilatlarla fəal əməkdaşlıq edir.

# Bakıda Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı qeyd olunub

**Dekabrın 2-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) milli bayramı - müstəqilliyin 53-cü ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib. AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Dövlət himnləri səsləndirilib.**

Ölkəsinin yaranmasının tarixi əhəmiyyətindən danışan BƏƏ-nin Azərbaycandakı səfiri Məhəmməd əl Bluşi deyib: "BƏƏ beynəlxalq əməkdaşlığın vacibliyinə inanır və həmişə hamıya fayda verən strateji tərəfdaşlıqlar qurmağa çalışır. Bu gün biz qardaş və dost ölkələrlə ikitərəfli münasibətləri gücləndirmək, sülh, sabitlik və davamlı inkişafa nail olmaq üçün beynəlxalq səyləri dəstəkləmək öhdəliyimizi təzələyirik.

BƏƏ inanır ki, regional təhlükəsizliyin gələcəyi güclü çoxtərəfli tərəfdaşlıqdan və sülhpərvər siyasi və iqtisadi vasitələrlə sabitliyə və firavanlığa nail olmaq üçün ortaq öhdəlikdən asılıdır. Birgəyaşayış BƏƏ cəmiyyətinin təməl sütunudur. Ölkə 200-dən çox milləti harmoniya içində əhatə edib. Müxtəlif mədəniyyətlər təhlükəsiz və firavan bir mühitdə birlikdə yaşayırlar".

Səfir həmçinin Azərbaycan hökumətinə COP29 tədbirinə uğurla evsahibliyi etməsi münasibətilə səmimi təbriklərini çatdırıb. Vurğulayıb ki, bu tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed al Nəhyan, eləcə də BƏƏ-dən 22 nümayəndə heyəti iştirak edib.

O bu tarixi gündə BƏƏ ilə Azərbaycan arasında əməkdaşlıq və qarşılıqlı hörmət əsasında qurulmuş yüksəksəviyyəli ikitərəfli münasibətləri təqdir edib: "Hər iki dövlət liderlərinin qarşılıqlı səfərləri, davamlı artan ticari, iqtisadi və mədəni mübadilənin səviyyəsi, həmçinin BƏƏ və Azərbaycandan turist və ziyarətçilərin sayının artması, ikitərəfli əlaqələrin müxtəlif sahələrdə güclənməsinə dəlalət edir. Cari ilin 7 ayı ərzində BƏƏ-dən Azərbaycana gələnlərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,5 faiz artıb. 2023-cü ildə iki ölkə arasında qeyri-neft idxal, ixrac və təkrar ixrac da daxil olmaqla ikitərəfli ticarətin ümumi həcmi 1 milyard 641 milyon ABŞ dolları, bu ilin 10 ayı ərzində isə ikitərəfli ticarətin həcmi 80 milyon dolları ötüb".

Daha sonra çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz arasında münasibətlər dövlət başçılarımızın siyasi iradəsi və səmimi dostluğu sayəsində yüksələn xətt üzrə inkişaf edir, tərəfdaşlığımızın əhatə dairəsi genişlənir.

"Diqqətinizə çatdırmaq istərdim ki, iki ölkə arasında "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" üzrə fəal danışıqlar aparılır. Bu sənədin imzalanması iqtisadi və ticarət əlaqələrimizin inkişafına əhəmiyyətli töhfə verəcək, xüsusilə ticarətin liberallaşdırılması, sərmayə axınlarının intensivləşməsi, həmçinin mal və xidmətlər üçün bazara çıxış imkanlarının artırılması yolu ilə əməkdaşlığı daha da dərinləşdirəcək", - deyə M.Cabbarov vurğulayıb.

Nazir əlavə edib ki, dost ölkə və etibarlı tərəfdaşımız olan Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrimizin dərinləşməsinə xüsusi əhəmiyyət veririk, məqsədimiz birgə fəaliyyətimizi daha da şaxələndirməkdir. İqtisadi əməkdaşlığımızı, xüsusən qarşılıqlı hədəflərimizə mühüm töhfə verə biləcək davamlı inkişaf və enerji təhlükəsizliyi sahələrində işbirliyini daha da genişləndirmək üçün böyük potensial mövcuddur.

2023-cü ildə Dubayda keçirilən COP28-dən sonra, bu il COP29-u Azərbaycanda keçirməyimiz, qlobal ətraf mühit təşəbbüslərinin önündə olmaq üçün göstərdiyimiz səyləri bir daha nümayiş etdirir.

"Tarixi torpaqlarımızın işğaldan azad edilməsi regional əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açıb. Azərbaycan hökuməti bu əraziləri bərpa edərək, regionu sülh və əməkdaşlıq mərkəzinə çevirməyi hədəfləyir. Ətraf mühitin qorunması bərpa və yenidənqurma işlərində əsas prioritet olaraq qalır", - deyə nazir sonda vurğulayıb.

Tədbir ziyafətlə davam edib.

# "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış" mövzusunda ictimai dinləmə keçirilib

**Dekabrın 2-də parlamentdə Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış" mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, dinləmədə Milli Məclisin deputatları, Prezident Administrasiyasının, Xarici İşlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin, Baş prokurorluğun, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, AMEA-nın, Auditorlar Palatasının, Sosial Tədqiqatlar Mərkəzinin nümayəndələri, Qərbi Azərbaycan İcmasının üzvləri, ziyalılar, hüquqşünaslar, tarixçilər, sahə mütəxəssisləri, media orqanlarının rəhbərləri, təhsil ocaqlarının, dövlət qurumlarının, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak ediblər.

Dinləməni giriş sözü ilə açan Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri və Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov belə mühüm mövzuda ictimai dinləmənin keçirilməsinə göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Qeyd edilib ki, ötən dövrdə Milli Məclisdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən beş dəfə ictimai dinləmə keçirilib. 1989-cu ildə yaradılan və Qərbi Azərbaycandan olan qaçqın soydaşlarımızın sosial və məskunlaşma problemləri ilə məşğul olan Azərbaycan Qaçqınlar Cəmiyyəti, Prezident İlham Əliyevin tövsiyəsi ilə 2022-ci ildə Qərbi Azərbaycan İcması adı ilə yenidən təşkil edilib. Bu addım tarixi torpaqlarımız uğrunda mübarizəyə yeni təkan verərək, soydaşlarımızın öz evlərinə dinc və təhlükəsiz qayıdışı üçün siyasi əsaslar yaradan "Qayıdış Konsepsiyası"nın hazırlanmasına zəmin yaradıb. Bütün bunlar doğma torpaqlarına qayıdışa sarsılmaz inam yaradaraq, Qərbi Azərbaycana Qayıdış ideyasını ümummilli hədəfə çevirib və onu beynəlxalq müstəviyə daşımağa nail olub. Prezident İlham Əliyevin liderliyi sayəsində icmanın hazırladığı sənədlər qısa müddətdə beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də rəsmi sənədlər kimi təqdim edilib. Qurumun bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Avropa İttifaqı, UNESCO ilə əməkdaşlığı genişlənib. 2024-cü ildə Qambiyada keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə 57 dövlətin yekun sənədində Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışına dəstək ifadə olunması və Ermənistanın müsəlman irsinə qarşı törətdiyi vandalizmin qınanması Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilib.

Diqqətə çatdırılıb ki, Qərbi Azərbaycan İcması bölgə həqiqətlərinin beynəlxalq müstəviyə çıxarılması və qaçqın soydaşlarımızın qayıdış hüququnun beynəlxalq miqyasda tanınması istiqamətində fəaliyyətini genişləndirməkdə qərarlıdır. İcma VII çağırış Azərbaycan parlamentinin formalaşmasından dərhal sonra Milli Məclisin Sədrinə müraciət edərək parlamentdə Qərbi Azərbaycana qayıdış məsələsi üzrə qurumun yaradılması təklifini irəli sürüb. Parlamentin spikeri Sahibə Qafarovanın sərəncamı ilə 13 nəfərdən ibarət Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradıldığını bildirən icma sədri, bu qrupun Azərbaycanın ümumdövlət və ümummillət maraqları, eləcə də tarixi ədalətin bərpası naminə var gücü ilə çalışacağını qeyd edib.

Tədbirdə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov, Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın sədri Ramid Namazov, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Qüdrət Həsənquliyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, deputatlar Azay Quliyev, Kamal Cəfərov, Ramil Həsən, Tənzilə Rüstəmxanlı, Rizvan Nəbiyev, Aydın Mirzəzadə, Səyyad Salahlı, Qaya Məmmədov və Məlahət İbrahimqızı çıxış edərək, son illər Milli Məclisdə Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən dinləmələrin əhəmiyyətini qeyd ediblər, bunun ölkənin milli maraqları və tarixi ədalətin bərpası baxımından müstəsna əhəmiyyət daşıdığını vurğulayıblar.

Qərbi Azərbaycan İcmasının fəaliyyətinə toxunan deputatlar qeyd ediblər ki, qurumun son iki ildə ciddi və fundamental xarakter daşıyan sistemli işləri bu sahədə mühüm nəticələr əldə olunmasına və Qərbi Azərbaycana qayıdış məsələsinin beynəlxalq müstəvidə daha geniş şəkildə işıqlandırılmasına töhfə verib. Bu məsələnin parlament diplomatiyası vasitəsilə dünya ictimaiyyəti tərəfindən daha dərindən anlaşılması və dəstəklənməsi barədə fikirlərini bölüşən deputatlar bildiriblər ki, bu proses Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin gücləndirilməsi və tarixi ədalətin bərpası baxımından çox vacibdir.

İclasda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov "Deportasiyaya məruz qalmış qərbi azərbaycanlılarla bağlı statistik məlumatlar", Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Samir Becanov "Beynəlxalq praktikada qaçqınların geri qayıdışının təmini", Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva "Qərbi Azərbaycanda maddi-mədəni irsimiz", Baş Prokurorluğun İstintaq İdarəsinin rəis müavini Qasım Məmmədov "Qərbi Azərbaycanda azərbaycanlılara qarşı cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi" və AMEA-nın Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri Cəbi Bəhramov "Qərbi Azərbaycan tarixinin öyrənilməsi və araşdırılması" mövzularında məruzələrlə çıxış ediblər. Tədbirdə həmçinin Avrasiya Universitetinin professoru Firudin Cəlilov, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin professoru Zahid Cəfərov çıxış edərək, soydaşlarımızın Azərbaycan xalqının tarixi torpaqlarına qayıdışının təmin edilməsinin hüquqi aspektləri barədə qeyd və təkliflərini irəli sürüblər.

Tədbirə yekun vuran Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri Əziz Ələkbərov iştirakçılara təşəkkürünü bildirib, Azərbaycan xalqının tarixi yaddaşının, Vətən sevgisinin güclü olduğunu vurğulayaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının təmin olunacağına inamını ifadə edib.

***"Azərbaycan"***

## 3 Dekabr Beynəlxalq Əlillər Günüdür







# Mehriban Əliyevanın himayəsi ilə...

**Hamısı bu mərkəzin işığına yığışıb...**

**Sevincdən üzləri, gözləri gülür...**

**Mənəvi rahatlıq, ruhi dinclik tapdıqları isti ocaqlarıdır bura...**

**Əksəriyyəti həyatda ilk böyük uğurlarına da məhz bu məkanda imza atır...**

**Qayğı gördükləri bu ünvanın səmimi, doğma, mehriban mühitində özlərini olduqca inamlı, güvənli hiss edirlər...**

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzindən danışırıq...**

**Əhalinin həssas qruplarına xidmət göstərilən, onların istedad və bacarıqlarını inkişaf və nümayiş etdirmələri üçün hər cür şəraitin qurulduğu unikal mərkəzdən...**

## Həssas qrupa aid şəxslər fəal həyata dönürlər









### Dünyanın qayğısına qal

3 Dekabr Beynəlxalq Əlillər Günü münasibətilə reportaj hazırlamaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə yollandığımızda da buranın benefisiarları və təlimçiləri qazandıqları növbəti uğurların xoş təəssüratları içərisində idilər. Onlar da ölkəmizdə keçirilən qlobal iqlim tədbiri - COP29-da əl işləri, musiqi çələngləri ilə iştirak etmiş, dünyamızın yaşıllaşması naminə öz həmrəyliklərini nümayiş etdirmişdilər.

Öyrəndik ki, COP29 tədbirinə hazırlıq öncəsi də mərkəz üzvləri ətraf mühitin mühafizəsinə xidmət edən təşəbbüslərə qoşulublar. Ölkəmizdə bu il elan olunan "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar mərkəz olaraq təbiətə töhfələrini öz sənət nümunələrində ifadə etməyə çalışıblar. Yaradıcılıq studiyalarında istifadəyə yararsız və eko-dost məhsullardan əl işləri hazırlanıb. Bu əl işlərinin bir hissəsi mərkəzdə "Take care of the Earth" (Dünyanın qayğısına qal) adlı layihə çərçivəsində təqdim edilib. Bundan əlavə, həssas əhali qruplarından olan şəxslərin iştirakı ilə ağacəkmə aksiyaları, ekoparklara və qoruqlara infoturlar təşkil edilib. Mərkəzin təlimçi və benefesiarlarının birgə hazırladığı əl işləri COP29 Əməliyyat Şirkətinin baş ofisində sərgilənib.

COP29-un "yaşıl zona"sında Art Pavilyonda mərkəz üzvləri sərgi və konsert proqramı ilə çıxış ediblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi tərəfindən COP29-un "yaşıl zona"sındakı Art Pavilyonda təqdim edilən sərgi və konsert proqramına baxıblar. Sərgidə mərkəzin və "DOST Evi" filialında hazırlanan 50-dən çox əl işi nümayiş etdirilib.

2021-ci il oktyabrın 22-də fəaliyyətə başlayan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Mərkəzdə həssas qrupa daxil olan şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, aztəminatlı ailələrə və əlilliyi olan şəxslərə xidmət göstərilir.

Ümumilikdə 14 fəaliyyət və subfəaliyyət istiqamətləri olan mərkəzin əsas məqsədi müxtəlif həssas qruplar, o cümlədən əlilliyi olan şəxslər, şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Ötən müddət ərzində mərkəzdə 600 nəfərdən çox benefisiara xidmət göstərilib. Onların böyük əksəriyyətini - 70,1 faizini, yəni 425 nəfərini əlilliyi olan şəxslər təşkil edir. Hazırda həssas əhali qruplarından olan 160-a yaxın şəxs təlimlərdən yararlanır. Onlardan 126 nəfəri, yəni 82.4 faizi əlilliyi olan şəxslərdir. Mərkəzə 6 yaşdan yuxarı şəxslər qəbul edilir.

Ölkəmizdə inklüzivlik anlayışının regionlarda təşviqi istiqamətində də aktiv iş aparılır. Ötən il noyabrın 15-də İsmayıllıda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə "DOST Evi" filialının açılışı olub. Yaxın zamanlarda isə Qarabağ "DOST Evi" şöbəsi də fəaliyyətə başlayacaq.

### Səmimi hisslərin, duyğulu anların sənətdə əksi

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tanış olduğumuz benefisiarlar və təlimçilərlə yaradıcılıq işləri ilə məşğul olduqları zaman söhbət etdik. Onların mərkəz barədə düşüncələrini, eyni zamanda burada özlərini hansı ab-havada hiss etmələri ilə bağlı duyğularını bölüşdük. Söhbətlərimizin ana mövzusunu isə onların demək olar ki, cari ilboyu xüsusi səy və həvəslə hazırlaşdıqları COP29 tədbiri təşkil etdi.

Öncə taxta-metal üzərində oyma emalatxanasına yollandıq. Otaq başdan-başa təlim iştirakçılarının əl işləri ilə bəzədilib. Mərkəzdə ağac üzərində oyma üzrə təlimçi, birinci qrup əlilliyi olan şəxs Asif Qasımov söylədi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılması əlilliyi olan şəxslər üçün çox gözəl şansdır: "Evdə qapanıb hansısa bir işlə məşğul olmayan əlillər bu mərkəzə gəlib həm art terapiya ala, həm də sevdikləri peşə ilə məşğul ola bilərlər".

Asif Qasımov dedi ki, müəllim yoldaşı İslam Həmidov və benefisiarlarla birlikdə "Yaşıl dünya naminə həmrəylik ili" ilə bağlı müxtəlif əl işləri hazırlayıblar: "Əlil olmamışdan əvvəl elektrik işlədiyim üçün qərara gəldik ki, eroziyaya uğramış, yanmış məftillərdən heykəl hazırlayaq və bu məftillərə ikinci həyat verək. Bir aya yaxın müddət ərzində "Yağış altında qadın" obrazı yaratdıq. Onu görənlərin reaksiyasından anlayıram ki, əl işimiz çox uğurlu alınıb. Bu əsərimiz, həmçinin "nar", "durna" və bir çox başqa hazırladığımız əl işi COP29-da təqdim etdiyimiz ekspozisiyada sərgiləndi".

Bu ünvanda diqqətçəkən studiyalardan biri də floristika studiyasıdır. Floristika üzrə təlimçi Ülkər Ağayeva məlumat verdi ki, burada peşəkar səviyyədə floristikaya yiyələnmək mümkündür. Eyni zamanda mərkəzdə xüsusi qayğıya ehtiyacı olan benefisiarlar üçün terapiya qrupları da var: "Bu qruplarla müxtəlif əl işləri hazırlayırıq. Hazırladığımız əl işlərinin bir qismi COP29-dakı pavilyonumuzda da sərgiləndi. Qeyd edim ki, ümumilikdə tullantıdan sənətə ideyasına uyğun olaraq, həmin tədbir üçün müxtəlif əl işləri hazırlamışdıq. Onlardan biri "Sakura ağacı" idi və demək olar ki, həmin iş üzərində təlimdə iştirak edən bütün benefisiarlar - ən ağır sindromlusundan tutmuş, belə deyək, peşəkar təhsil alan benefisiarlara qədər hər kəs bacardığı formada iştirak etmişdi. Kimisi ağacın budaqlarını hazırlamışdı, kimisi adicə yarpağı rəngləmişdi..."

Öyrənirik ki, 42 yaşlı Günel Rəsulova bu mərkəzə gələndə həvəsi olduğu üçün əvvəlcə dərziliyi seçərək bu peşəyə yiyələnməyə başlayıb. Sonra isə paralel şəkildə həm də bədii tikmə ilə məşğul olub. Hazırda muncuqla "nar" əl işi hazırlayan Günel xanım söylədi ki, bu mərkəzə gəlib sevdiyi peşələrlə məşğul olanda sanki ruhu da dincəlir.

### "Həyatın əsası"

Xalçaçılıq studiyasına daxil olanda gördük ki, təlimçi Solmaz Səfərova könüllü xanım və digər təlimçinin köməyi ilə növbəti xalçanın toxunması üçün əriş çəkir. Bu maraqlı prosesi izləyə-izləyə Solmaz xanımla söhbətləşdik. O dedi ki, toxunacaq eskiz Heydər Əliyev Mərkəzi əsasında olacaq: "Bu xalçanın hazırlanma müddəti benefisiarların mərkəzə gəlişi müddətindən və onların əllərinin sürətindən asılıdır. Xalçatoxuma sənəti həm güc, həm səbir, həm də diqqət tələb edir. Benefisiarlar da fiziki məhdudiyyətli olduqlarına görə, bəzilərinin motorikalarında zəiflik olur. Məsələn, onlar qayçını, bıçağı tuta bilmir, həvəyə gücləri çatmır və sadəcə ilmə vurmağı bacarırlar. Təbii ki, təlimçilər hər zaman onlara kömək göstərirlər. Onu da deyim ki, benefisiarlarımız çətinliklər qarşısında geri çəkilmirlər, əksinə, daha böyük həvəslə xalça toxumağa çalışırlar".

Keramika studiyasında benefisiarlar dulusçuluğun incəliklərini öyrənirlər. Mərkəzin keramika üzrə böyük mütəxəssisi Cahan Namazova qeyd etdi ki, elə benefisiarlar var ki, gillə işləməyə gücləri çatmır, amma bu peşəyə həvəsləri olur. Həmin şəxsləri keramika üzərində rəngləmə işləri aparmağa yönəldirlər.

COP29-a bir neçə ay ərzində hazırlaşdıqlarını vurğulayan Cahan Namazova dedi ki, bu müddət ərzində benefisiarlarla birlikdə xeyli əl işi hazırlayıblar: "Bu bizim üçün maraqlı və uzun bir proses oldu. Təlimçilər böyük işlər üzərində işləyirdilər, benefisiarlar isə bacardıqları qədər onlara kömək edirdilər. Müxtəlif heyvan fiqurları, güldanlar hazırladıq. "Həyatın əsası" adlandırdığımız "tısbağa" əsərini isə yenə də benefisiarların kiçik də olsa köməyi ilə özüm işlədim. Yapışqandan başqa alınma materialdan istifadə etmədiyim, yalnız tullantılardan hazırladığım bu əsər COP29-un "yaşıl zona"sında sərgiləndi və çox maraqla qarşılandı".

Səbinə Abbasova ilə divarboyu sıra-sıra rəsmlərin düzüldüyü işıqlı və geniş təsviri incəsənət studiyasında tanış olduq. Əlindəki fırçanı həvəslə çəkdiyi üzüm rəsminin üzərində gəzdirən 19 yaşlı gənc qızı elə kənardan izləməyin özü dünyalara dəyərdi...

Səbinə danışdı ki, 5 yaşından etibarən rəssamlığı sevməyə başlayıb. Artıq 11 aydır ki, könül verdiyi bu peşə ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində məşğul olur: "Bu mərkəzin aurası tam fərqlidir, sanki hər kəs burada bir-birinə doğmadır. Məhz bu ünvanda özgüvən qazandım, seçdiyim peşə ilə daha da inamla məşğul olmağa başladım".

### "Yaşıl dünya"nın musiqi sədası

Kamança ifaçısı Fatimə İsrafilova 2022-ci ilin fevralında bu mərkəzə gələndə Azərbaycan Milli Konservatoriyasının birinci kurs tələbəsi olub. Fatimə dedi ki, o zamandan etibarən xeyli sayda tədbirə, konsertə, müsabiqəyə qatılıb. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin sayəsində püxtələşərək hazırda burada kamança üzrə təlimçi vəzifəsində çalışır. Ən çox çaldığı melodiyanın Fikrət Əmirovun "Mən səni araram" əsəri olduğunu vurğulayan gənc xanım söylədi ki, COP29 çərçivəsində keçirilmiş tədbirdə ansambl şəklində Elnur Mikayılovun "Yol" kompozisiyasını ifa ediblər: "Bu cür əzəmətli, beynəlxalq səviyyəli tədbirdə iştirak etdiyim üçün qürur duyuram. Demək olar ki, həyatımdakı ən böyük anlardan birini o zaman yaşadım".

Xaliq Şərifov da mərkəz açılanda bura benefisiar kimi gəlib, amma hazırda əməkdaşdır. Mərkəzdə olduğu müddətdə həm konsertlərdə, həm də çoxsaylı dövlət tədbirində iştirak edib: "Təbii ki, bütün bunlar inkişafım üçün böyük töhfələr verir. Eyni zamanda COP29-un "yaşıl zona"sındakı pavilyonumuzda keçirilən konsertdə ifaçı kimi çıxış etmək şərəfinə nail oldum. Bu, çox qürurverici hiss idi. Bizi orada dünyanın müxtəlif yerlərindən gələn qonaqlar dinlədilər. Mərkəzimiz tərəfindən möhtəşəm şəkildə təşkil olunan konsertdə sənət yoldaşım Səməd Novruzovla birlikdə dünya musiqisindən Luçano Pavarottinin repertuarından "Caruso" əsərini səsləndirdik", - deyə o bildirdi. Xaliq Şərifov onu da dedi ki, konsertdən sonra Leyla Əliyeva və Arzu Əliyeva onlarla görüşüb, foto çəkdiriblər: "Leyla xanım və Arzu xanım ifamızı bəyəndiklərini bildirdilər. Bu sözləri eşitmək bizə böyük ruh verdi. Ümumiyyətlə, bir musiqiçi üçün ən böyük mükafat alqışdır. Biz də COP29-da tamaşaçılar tərəfindən bu mükafatı qazandıq".

Gitara ixtisası üzrə təlimçi Fərqan Sadıqov dedi ki, COP29-da iştirak etmək üçün mərkəz olaraq çox ciddi hazırlaşıblar: "Ölkəmizin tarixindəki nadir tədbirlərdən birində çıxış etmək xüsusi, təkrarolunmaz təəssürat idi. Bu qlobal səviyyəli tədbirdə rolumuzun olması həm mərkəz, həm də fərd olaraq bizi çox sevindirdi. Konsertdə "Gəl-gəl maralım" mahnısını yeni aranjimanda ifa etdim. Tamaşaçılar tərəfindən çox bəyənildi".

Bəli, mehribançılığın, doğmalığın, qayğıkeşliyin hakim olduğu DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində qısa müddət ərzində müxtəlif yaşlı, istedadlı, yaradıcı şəxslərlə tanış olduq. Bu şəxslərin rəsmlərdə, heykəllərdə, naxışlarda, melodiyalarda, ritmlərdə əks olunan daxili dünyalarına səyahət etdik...

Bir daha əmin olduq ki, insan sadəcə fiziki varlıq deyil və buna görə də əlillik onun üçün əsla əngəl sayıla bilməz. Sadəcə onların könüllərində, ruhlarında olan yaratmaq sevgisini üzə çıxarmaları üçün şərait qurulmalıdır.

Bu müstəsna imkanları isə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin timsalında birinci xanım Mehriban Əliyeva onlar üçün ən mükəmməl formada yaradıb...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

## Lənkəranda tibbi aksiya keçirilib



**ADA Universiteti, ADA Universiteti Fondu (ADAF), "Referans Medical Group" və PAŞA Bankın birgə təşkilatçılığı, TƏBİB-in dəstəyi ilə Lənkəran Rayon Mərkəzi Xəstəxanasında tibbi müayinələr keçirilib.**

Müayinələr zamanı "Referans Medical Group"un Bakıdan dəvət olunmuş müxtəlif ixtisaslı həkimləri tərəfindən müayinələr aparılıb və diaqnostik xidmətlər (USM, EKQ, EXO-KQ) göstərilib. Məqsədi bölgə sakinlərinin sağlamlığını dəstəkləmək, tibbi xidmətlərin regionda yaşayan hər kəsə daha əlçatan olmasını təmin etmək və ictimai sağlamlığa töhfə vermək olan sosial aksiyada gün ərzində 500-ə yaxın pasiyent müayinədən keçirilib.

ADAF-ın sponsorluq layihələri şöbəsinin rəhbəri Firuzə Əliyeva layihənin icrası ilə bağlı fikirlərini bölüşərkən bildirib: "Təcrübəli səhiyyə işçilərini Lənkərana dəvət etməklə sağlam həyat tərzini regionlarda da təbliğ edir, cəmiyyət üzvlərinə vaxtında tibbi müayinə mədəniyyətini aşılayırıq. Bu layihə həm də cəmiyyətin sağlamlığında əməkdaşlığın gücünü nümayiş etdirir".



***S.CAVADOV, "Azərbaycan"***

## Gözdən əlilliyi olan şəxslər üçün icra olunan "Sosial notlar" layihəsi iştirakçılarına aktivlər verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin gözdən əlilliyi olan şəxslərin məşğulluğuna dəstək məqsədilə icra etdiyi "Sosial notlar" layihəsi iştirakçılarına aktivlər təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, nazirliyin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində keçirilən tədbirdə agentliyin İdarə Heyətinin sədri Sadiq Əliyev əlilliyi olan şəxslərin sosial təminatı, reabilitasiyası, cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin ildən-ilə gücləndiyini bildirib.

O, məşğulluq proqramlarının icrasında bu kateqoriyadan olan şəxslərə üstünlük verildiyini, onlar üçün xüsusi layihələr icra olunduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, bu ilin 10 ayında agentlik tərəfindən işlə təmin edilənlərdən 9 min 500-ə yaxını, özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatları qurulanlardan 1300 nəfəri əlilliyi olan şəxslər olub. Həmin dövrdə əlilliyi olan 421 şəxs isə peşə hazırlığına cəlb edilib.

"Sosial notlar" layihəsinin də gözdən əlilliyi olan şəxslərin özünüməşğulluq proqramı çərçivəsində öz işlərini qurmalarına dəstək məqsədi daşıdığı bildirilib.

QHT nümayəndələri, layihə iştirakçıları, digər qonaqlar əlilliyi olan şəxslərə yönələn dəstək tədbirlərini, onların özünüməşğulluq proqramı ilə əhatə olunmaları, yaradıcı potensiallarının inkişaf etdirilməsi üçün aparılan işləri yüksək qiymətləndiriblər.

Tədbirdə gözdən əlilliyi olan 18 şəxsə layihə üzrə seçimlərinə uyğun olaraq sintezator, nağara, saz, gitara təqdim edilib.

*Məşğulluq layihəsinin iştirakçısı:*

## "Avadanlıqlarla təmin olunmağım qazancıma da müsbət təsir göstərəcək"




**Vahid Quliyev Nərimanov rayonunda gözdən əlilliyi olan şəxslər üçün 38 saylı musiqi məktəbini, sonra isə musiqi-pedaqoji kolleci bitirib. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin gözdən əlilliyi olan şəxslərin məşğulluğuna dəstək məqsədilə icra etdiyi "Sosial notlar" layihəsi çərçivəsində aktivlərlə təmin olunub.**

V.Quliyev AZƏRTAC-ın müxbiri ilə söhbət zamanı deyib: "Dövlət Məşğulluq Agentliyinin keçirdiyi layihələrlə maraqlanırdım. Məşğulluq proqramlarının icrasında musiqi profilli layihələrin həyata keçirilməsi çox ürəyimcə oldu və həmin layihədə mənim də aktivlərlə təmin olunmağım təmin edildi. Uzun illərdir ki, musiqi sahəsində fəaliyyət göstərirəm və avadanlıqlarla təchiz olunmağım çox yerinə düşdü. Sintezator, səs avadanlığı və digər musiqi avadanlığı ilə təchiz olunmuşam".

Müsahibimiz daha sonra bildirib: "Bəzən elə olur ki, musiqi avadanlıqlarını kirayəyə götürməli oluruq. Şükürlər olsun ki, avadanlıqların şəxsi istifadəyə verilməsi ilə həmin qayğılardan xilas olacağıq. Necə deyərlər, özgə malı başqa, özününkü başqa. Güman edirəm ki, şəxsi avadanlıqlara malik olmaq qazancıma da müsbət təsir göstərəcək. Bu cür layihələrin davamlı olmağını arzu edərdim".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qərb Cənubi Qafqazda yeni təxribat planlarını işə salıb

**Son günlər qonşu Gürcüstanda baş verənlər təkcə bu ölkə üçün deyil, ümumilikdə Qafqaz regionu üçün ciddi narahatlıqlar doğurmaqdadır. Çünki proseslərin müşahidəsi heç də sonuncu parlament seçkisinin nəticələri ilə bağlı narazılıqlardan dolayı üz-üzə gəlmiş iki siyasi qüvvənin dinc qarşıdurması təsiri bağışlamır.**



Vəziyyət getdikcə gərginləşir və gərginləşdikcə də bu hadisələrin arxasında duranların əsl niyyətləri, daha konkret desək, Qərbin Gürcüstan vasitəsilə regiondakı sabitliyə təsir planı üzə çıxır. Qərbin təxribat mərkəzlərinin qeyri-hökumət təşkilatları (QHT) vasitəsilə Gürcüstanda həyata keçirdikləri hibrid müdaxilələr, təkcə bu ölkənin daxili sabitliyini deyil, ümumilikdə regionumuzun təhlükəsizliyini təhdid altında qoyur.

### QHT-lər ideoloji manipulyasiya vasitəsi rolunda

Baş verənlər Qərbin üçüncü sektoru - yəni qeyri-hökumət təşkilatlarını maliyyələşdirmə mexanizmləri vasitəsilə uzun illər ərzində Gürcüstanda dövlət içərisində öz dayaqlarını qurduğunu, siyasi gündəliyini qəbul etdirmək üçün mexanizmlər formalaşdırdığını göstərir. Hazırda Qərb bu dayaqları, mexanizmləri tam gücü ilə işə salaraq Gürcüstanın demokratik seçki yolu ilə yeni formalaşmış hakimiyyətinə güc nümayiş etdirir, onlara öz istəklərini qəbul etdirməyə çalışır.

Bu proses, vətəndaş qarşıdurması və hətta vətəndaş müharibəsi həddinə qədər çata biləcək təhlükəli bir strategiyanın tərkib hissəsidir. Qərbin dəstəklədiyi QHT-lər cəmiyyətin ideoloji manipulyasiyası üçün əsas vasitə rolunda çıxış edir. Bu təşkilatlar gürcü xalqının milli kimlik və tarix kimi əsrlərə söykənən əsas dəyərlərini arxa plana çəkərək, LGBT və ifrat sağçı düşərgələri ön plana çıxarırlar.

Qərb illər ərzində məhz QHT-lər vasitəsilə bu ölkədə o qədər sistemli iş aparıb ki, Gürcüstanda milli maraqlara xidmət edən məsələlər, o cümlədən ərazi bütövlüyü və itirilmiş torpaqların geri qaytarılması kimi mövzular ictimai müzakirədən, demək olar ki, tamamilə çıxarılıb. Bunun yerini gürcü milli kimliyini aşındıran, beyinlərin yuyulmasına xidmət edən məsələlər tutub. Qərbin Gürcüstanda həyata keçirdiyi ideoloji kampaniya, öz soy-kökünə, mentalitetinə, adət-ənənələrinə bağlı olan, yüksək milli qürur hissinə malik gürcü xalqının dəyərlərini hədəfə alıb. Əsrlərlə qorunub saxlanılan milli dəyərlərin Qərbin ideoloji təsiri nəticəsində arxa plana keçirilməsi, bunun əvəzinə yad ideologiyaların - LGBT və ifrat sağçı qüvvələrin təsirinin artırılması, Gürcüstan cəmiyyətində qanlı qarşıdurmalar üçün zəmin hazırlayır.

### Ukraynada baş verənlərin Gürcüstanda təkrarı

Baş verənləri müşahidə etdikcə burada 2014-cü ildə Ukraynada baş vermis ssenarinin təkrarını görmək o qədər də çətin deyil. On ildən sonra Gürcüstanda məhz eyni ssenari işə salınıb. Burada Qərbin dəstəklədiyi etirazçılar arasında Balkan, Şərqi Avropa və Baltikyanı ölkələrdən gətirilən təxribatçıların olması iddiaları gündəmdədir. Həmin təxribatçılar arasında odlu silah daşıyan şəxslərin olması, onların etirazçılara məqsədli şəkildə atəş açması, baş verən qətllərin məsuliyyətinin hökumətin üzərinə atılması riski çox realdır. Bütün bunlar baş verərsə, ölkədə daxili sabitliyi pozmağa yönəlmiş strategiya öz məqsədinə çatacaq. Bunun Gürcüstan və regionumuz üçün hansı dəhşətli nəticələrə gətirəcəyini təsəvvür etmək belə qorxuludur. Belə bir prosesin başlanğıcı Gürcüstanı xaosa sürükləmək, demokratik hökumətin legitimliyini sarsıtmaqdır ki, artıq yaxın qonşumuzda bunlar edilir.

Qərb, Gürcüstan vətəndaşlarının demokratik şəkildə seçib mandat verdikləri hökumətə qarşı hibrid müharibə aparır. Avropa İttifaqının və bir çox Qərb ölkələrinin səfirlərinin bu ölkədə apardıqları pozucu iş, onların təxribatçı davranışları, Gürcüstan hökumətinə birbaşa təzyiq və bu ölkənin daxili işlərinə kobud müdaxilədir. Xüsusilə Avropa İttifaqının Gürcüstandakı səfiri, ölkədəki siyasi proseslərdə birbaşa iştirak edərək özünü "canişin" kimi aparır. Bu, Gürcüstanın dövlət suverenliyinə açıq müdaxilə olmaqla yanaşı, beynəlxalq hüququn prinsipləri ilə də ziddiyyət təşkil edir.

### Gürcü xalqı təxribatlara getməməlidir

Baş verən hadisələr daha da gərginləşmədən, münaqişələr küçə və meydanlardan diskussiya məcrasına yönələrək Gürcüstanın daxili məsələsi kimi öz sivil həllini tapmalı, xarici qüvvələr bu proseslərə müdaxilə etməkdən çəkinməlidirlər. Qərb Gürcüstanı qeyri-sabitliyə sürükləmək cəhdlərindən əl çəkməlidir. Fərqində olmalıdır ki, bu hadisələrlə təhlükəsizliyi təhdid altına salınan təkcə Gürcüstan deyil. Ümumilikdə ciddi risklərlə üzləşən regiondur. Ən çox isə bu məsələdə gürcü xalqının siyasi iradə, milli həmrəylik göstərməsinə ehtiyac var. Xalq onların dogma Vətənində və elə onların da əli ilə min bir təxribatlar törətməyə çalışan xarici qüvvələrin aləti olmamalı, öz daxili məsələlərini özləri həll etməli, milli maraqlar naminə müdriklik nümayiş etdirməlidir.

Bu gün ölkə prezidentindən "meydan qəhrəmanı"na çevrilən Gürcüstan Prezidenti Salome Zurabaşvilinin keçmişi, karyera yolu onun Qərbin, xüsusən də Makron hökumətinin agenti olmasının sübutudur. O, yaxın keçmişdə Fransa vətəndaşı olub, Fransa Xarici İşlər Nazirliyində çalışıb, zamanında Gürcüstana xüsusi missiya ilə göndərilib və bu gün də təxribatçı davranışları ilə öz missiyasını davam etdirməkdədir. Gürcüstanda qərbyönümlü təsirlərin son onilliklərdə xeyli dərəcədə artması S.Zurabaşvili kimi Qərb agentlərinin əməllərinin nəticəsidir.

Qonşu ölkədə baş verənlər Azərbaycan üçün də son dərəcə həssas məsələdir. Qərbin Gürcüstanı qeyri-sabitliyə sürükləməsi ölkəmizdən ötrü qətiyyən qəbuledilməzdir. Gürcüstanla Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri, genişmiqyaslı iqtisadi əməkdaşlıq, sıx kommunikasiyalar var. Bu gün Azərbaycan-Gürcüstan münasibətləri regionumuzda sabitliyi təmin edən mühüm amillərdəndir. Bu dövlətdə sabitliyin pozulması, Azərbaycanın tranzit layihələrinə və regiondakı təhlükəsizlik mühitinə mənfi təsir göstərə bilər. Qərbin qonşu ölkədə həyata keçirdiyi təxribatlar bu cəhətdən də ciddi narahatlıqlar yaradır.

### Qafqaz ssenarisində Ermənistanın yeni müharibə avantürası

Narahatlıq yaradan daha bir məqam isə Gürcüstan hadisələrinin son dövrlər Ermənistan siyasətində revanşizm əhval-ruhiyyəsinin artması, sürətlə silahlanma meyilləri ilə üst-üstə düşməsidir. Ermənistanın bu istiqamətdəki addımları, Fransanın və digər Qərb ölkələrinin təhriki ilə getdikcə daha ciddi miqyas alır. Müharibədən məğlub çıxan bir ölkənin yenidən silahlanaraq hərbi əməliyyatlara hazırlaşması, Cənubi Qafqazda kövrək sülhün pozulması təhlükəsi doğurur. Bütün bunlar isə Qərbin öz təxribatçı ssenarisini reallaşdırmaq üçün təkcə Gürcüstanla məhdudlaşmadığını, çoxşaxəli tədbirlər planına Ermənistanı Azərbaycana qarşı müharibəyə hazırlamağı da daxil etdiyini göstərir.

Fransa və ümumən Qərbin bu təxribat ssenarisində həvəslə iştirak etməyi Ermənistanın Baş naziri Nikol Paşinyanının da müəyyən qədər işinə yarayır. Çünki Paşinyanın ictimai reytinqi son illər ciddi şəkildə enməkdədir. Ölkədəki daxili narazılıqlar, üst-üstə yığılıb həllini gözləyən iqtisadi problemlər, müharibədəki biabırçı məğlubiyyətdən sonra yaranmış sosial gərginlik onun mövqelərini getdikcə zəiflədir. Paşinyan öz reytinqini bərpa etmək və yenidən ictimai dəstəyi qazanmaq üçün diqqəti xarici məsələlərə yönəltməyə çalışır. Hökumət xüsusilə Azərbaycan üzərində kiçik də olsa bir qələbə qazanmaqla, siyasi vəziyyəti düzəltmək məqsədi güdür. Bu isə regionda hərbi əməliyyatların yenidən alovlanması deməkdir.

Ermənistanı bu yola sövq edib onun arxasında duran Fransanın, Avropa İttifaqının əsas niyyətlərindən biri də Ukraynada istədikləri nəticəni əldə edə bilmədikləri üçün Rusiyanın diqqətini başqa bir cəbhəyə yönəltməkdir. Bu planı işə salan Qərb təxribatçı dairələri belə bir düşüncədədirlər ki, Ermənistan vasitəsilə Cənubi Qafqazda gərginlik yaradaraq Rusiyanın resurslarını bölüb onu zəiflədə bilərlər. Ermənistanın yeni müharibə avantürası, Qərbin növbəti geosiyasi planlarının bir hissəsidir və bu vəziyyət Ermənistan hakimiyyəti ilə Qərbin maraqlarını üst-üstə gətirir.

Bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycan, təbii ki, istənilən təxribata lazımi səviyyədə cavab vermək gücündədir. Amma biz regionumuzda yeni münaqişələrin bir daha baş verməsini istəmirik. Çünki istənilən münaqişə, gərginlik ocağı, yeni faciələr, ağrılar, müəyyən edilmiş strateji inkişaf hədəflərindən yayınmaq, resursları tərəqqiyə, quruculuğa deyil, başqa məqsədlərə yönəltmək və illərlə geri düşmək deməkdir.

Münaqişələr, dağıntılar, insan itkiləri regionumuzun heç bir sadə sakininə lazım deyil. İnsanlar sülh və xoşbəxtlik, dayanıqlı inkişaf, rifah, layiqli həyat istəyirlər. Azərbaycanın da Cənubi Qafqazın hər bir sakininə vermək istədiyi məhz budur. Ona görə bölgəmizin sağlam düşüncəyə malik bütün insanları təxribatlara yox deməyi bacarmalı, yaşadığımız coğrafiyanın aydın gələcəyi naminə həmrəylik göstərməlidirlər.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## İrakli KOBAXİDZE: "Son illərdə Gürcüstanda 3 dəfə inqilaba cəhd olunub"

**Gürcüstanda müxalifətin əvvəlcədən yazılmış və razılaşdırılmış bir inqilab planı var. Bu planın həyata keçirilməsinə xaricdən maliyyə yardımı göstərilib.**



AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib.

Hökumət başçısı deyib ki, müxalifətin və onların xaricdəki havadarlarının bütün cəhdlərinə baxmayaraq, ölkədə "maydan" heç vaxt baş tutmayıb və olmayacaq.

Baş nazir əlavə edib: "Biz görürük ki, razılaşdırılmış və əvvəlcədən yazılmış bir plan var və bu plana xaricdən maliyyə dəstəyi göstərilib. Bu planın həyata keçirilməsi məqsədilə bəzi insanlar qanun qəbul edilməsi zamanı şəffaflıqdan qaçmaq istəyirdilər. Buna nail olmadıqda isə inqilab ssenariləri hazırlandı və qeyri-müəyyən şəkildə maliyyələşdirildi. Son 4 ildə 3 dəfə inqilaba cəhd olundu. Biz buna imkan vermədik".

## Qərb Gürcüstanda qarşıdurma yaratmaq üçün əlindən gələni edir

### Bu isə gürcü xalqına yaxşı heç nə vəd etmir

**Oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkilərindən sonra ölkədə vəziyyət olduqca gərginləşib. Bu gərginliyi süni surətdə yaradan isə Qərbdir. Seçki günü gürcü xalqı məntəqələrə gələrək seçimini edib, iqtidar partiyasına səs verib. Daim qan tökməyə, münaqişə yaratmağa maraqlı olan Qərb ölkələri isə parlament seçkilərində hakim "Gürcü Arzusu"nun qələbəsi ilə razılaşmır, bu nəticəni qəbul etmək istəmir. Ona görə də Gürcüstanda vəziyyəti gündən-günə gərginləşdirir.**

Özünü demokratiyanın carçısı hesab edən Qərb xalqın seçiminə hörmətsizlik göstərir. Müxalifəti maliyyələşdirərək onların əli ilə ölkədə qarşıdurma yaradır. Son günlər paytaxt Tbilisinin küçələrini inqilab şüarları, qarşıdurma çağırışları bürüyüb. Bu çağırışlara aldanan bəzi maraqlı qüvvələr hüquq-mühafizə orqanları əməkdaşlarına xəsarət yetirir, qanuna zidd hərəkətlər edirlər.

Qərb mediası da Gürcüstandakı hadisələri qabardaraq ölkənin inqilabın astanasında olduğunu bildirir. ABŞ və Avropa İttifaqı (Aİ) müxtəlif yollar və vasitələrlə Gürcüstana təzyiq göstərməyə çalışırlar. Bu ölkədə təşkil olunan aksiyaların yeganə hədəfi ölkəni növbəti "rəngli inqilab"a sürükləməkdir. Məqsədinə çatmaq üçün Qərb dəridən-qabıqdan çıxır. Rəsmi Tbilisi isə bu təzyiqlərə baxmayaraq, tutduğu mövqedən geri çəkilmir, Qərbin diktəsinə boyun əymir. Nə qədər çətin olsa da, öz dövlətini, dövlətçiliyini xarici təzyiq və təhdidlərdən qorumağa çalışır.

Amma buna baxmayaraq, Qərb ölkələri hər vəchlə ölkədə xaos yaratmaq istəyirlər. Əvvəlki illərdə olduğu kimi, Qərb yenə də Gürcüstanda "rəngli inqilab" etməyə, onun diktəsi ilə oturub-duran qüvvələri hakimiyyətə gətirməyə çalışır. Onu da qeyd edək ki, Qərb ölkələri bir müddət əvvəl belə çirkin ssenarini Serbiyada həyata keçirməyə çalışmışdılar. Onların bütün cəhdləri uğursuzluğa düçar olmuşdu. Serbiyadan əli üzülən Qərb indi yenidən Gürcüstanı hədəf seçmişdir.

Düşünmək olar ki, axı niyə Qərb tərəfindən "rəngli inqilab"ın məkanı məhz Gürcüstan seçilir? Nə üçün bu eksperiment başqa ölkələrdə sınaqdan keçirilmir? Məlumdur ki, Tbilisi hakimiyyəti balanslı xarici siyasət yürüdərək Qərbin qan qoxulu istəklərini yerinə yetirmir. Bu addımı ilə hər şeydən əvvəl, dövlətinin, xalqının mənafeyinin müdafiəsində dayanır. Gürcüstan dünyanın inkişaf etmiş ölkələri ilə, həmçinin Rusiya ilə sıx əməkdaşlıq edir. Rusiyanı sanksiyalarla çökdürməkdə israrlı olan Qərbə isə rəsmi Tbilisinin bu cür mövqe göstərməsi sərf etmir. Məhz buna görə də Qərb Gürcüstanda "rəngli inqilab"a cəhd göstərir. Bununla da gürcü xalqının müstəqilliyinə, dövlətçiliyinə zərbə vurmağa çalışır. Gün kimi aydındır ki, iğtişaşları törətməkdə məqsəd getdikcə Gürcüstanı zəiflətmək, onu Rusiyaya qarşı sanksiyalara qoşulmağa məcbur etməkdir.

Gürcüstanda baş verən bu xoşagəlməz hadisələr bir daha Qərbin, ABŞ-nin iç üzünü açıb ortalığa qoyur. Məlum olur ki, başqalarına demokratiya öyrətmək istəyən Qərbin özünün demokratiyaya, söz azadlığına ehtiyacı var. Seçkilərdə öz seçimini etmiş, hakim "Gürcü Arzusu"na səs vermiş gürcü xalqına qarşı bu cür addım atmaq riyakarlıqdan başqa bir şey deyil.

Rusiya Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin MDB-yə üzv dövlətlərin Təhlükəsizlik Orqanları və Kəşfiyyat Xidmətləri Rəhbərlərinin 20-ci müşavirəsində çıxışı zamanı Tbilisidə baş verən hadisələrə münasibət bildirib. O qeyd edib ki, Gürcüstan hazırda xarici qüvvələr vasitəsilə "rəngli inqilab" cəhdi ilə üzləşib: "Yəni dövlət çevrilişinə cəhd edirlər. Ümid edək ki, bu, uğursuz olacaq. Necə ki, Qərbin Belarus və Qazaxıstana zərbə vurmaq cəhdləri əvvəllər uğursuz olub".

Qonşu ölkədə parlament seçkilərindən sonra siyasi proseslərin gedişi, xüsusilə Qərbdən idarə olunan müxalifətin əsassız olaraq seçkilərin nəticələrinin ləğv olunması və yeni seçkilərin keçirilməsinə yönəlmiş fəaliyyəti onu aydın şəkildə göstərir ki, Qərb Gürcüstanda "rəngli inqilab" ssenarisini əvvəlcədən planlaşdırıb və həyata keçirməyə çalışır. Burada Qərbin qarşıdurma yaratmaqda, inqilaba cəhd göstərməkdə başlıca məqsədi mövcud hakimiyyəti devirməkdir. Çirkin məqsədinə çatandan sonra isə Gürcüstanda qərbmeyilli, Qərbdən idarə olunan iqtidar komandası formalaşdırmaqdır.

İllər öncə ilk dəfə "rəngli inqilab"lar təşkil edilmiş ölkələrdə, o cümlədən də Gürcüstanda xalq demokratik cəmiyyətin varlığına inamlı idi. Amma zaman-zaman bu inam tamamilə itdi. 2008-ci ilin avqustunda Rusiya ilə yaşanan dördgünlük müharibədən sonra vəziyyət daha da pisləşdi. Gürcüstan torpaqlarını itirdi. Bu gün ölkədə hadisələrin gedişi onu bir daha göstərir ki, Gürcüstan yenə də məcburən inqilaba, qarşıdurmaya sürüklənir. Bu qarşıdırmalar isə gürcü xalqına yaxşı heç nə vəd etmir. Çünki "rəngli inqilab"lar xalqlara yalnız fəlakət gətirdi, faciələr yaşatdı. Qərb unutmasın ki, tarixi geri qaytarmaq mümkün deyil. Gürcü xalqı bu faciəni bir dəfə yaşayıb, ikinci dəfə isə onun təkrarlanmasını istəmir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



## Azərbaycanın və Gürcüstanın XİN-ləri arasında növbəti konsulluq məsləhətləşmələri aparılıb

**Dekabrın 2-də Tbilisi şəhərində Azərbaycanın və Gürcüstanın Xarici İşlər nazirlikləri arasında növbəti konsulluq məsləhətləşmələri keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Gürcüstan nümayəndə heyətinə isə Gürcüstan Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Qiorqi Tabatadze rəhbərlik edib.

Konsulluq məsləhətləşmələri zamanı iki ölkə arasında konsulluq sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, o cümlədən sahə üzrə ikitərəfli sənədlərin imzalanması barədə fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qorunması və onlara konsulluq yardımının göstərilməsi mövzusu üzrə müzakirələr keçirib, yaranmış çətinliklərin aradan qaldırılması üçün əməkdaşlığın intensivləşdirilməsinə dair razılığa gəliblər.

Azərbaycanla Gürcüstan arasında ədliyyə, miqrasiya, təhsil, humanitar, sosial müdafiə və digər vacib sahələr üzrə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, müvafiq sahələr üzrə əlaqələrin gücləndirilməsi istiqamətində birgə tədbirlərin vacibliyi vurğulanıb.

Danışıqların sonunda iki ölkənin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən görüşün protokolu imzalanıb.

# REGİONLAR

## Qazax teatrı beynəlxalq festivaldan əliboş qayıtmadı

**Qazax Dövlət Dram Teatrı hazırda özünün yeni yaradıcılıq dövrünü yaşayır. Aparılan islahatlar teatr kollektivinin beynəlxalq festivallara da yolunu açıb. Teatr 2 ildir müxtəlif festival və qastrollarda uğurla iştirak edir.**

Bu ilin sentyabr ayında Qazaxıstandan Qazax teatrına məktub gəldi. Məktubda bildirilirdi ki, Qazaxıstanın Astana şəhərində tanınmış yazıçı-dramaturq Roza Mukanovanın 60 illiyinə həsr olunmuş "Teatr-ALL" III Beynəlxalq Teatr Festivalı keçiriləcək və Qazax teatrı da həmin festivala dəvət olunur. Dəvəti böyük məmnuniyyətlə qəbul edən Qazax Dövlət Dram Teatrı həmin festivala qatılmış və uğurla çıxış etmişdir.

Tənqidçilər və münsiflər heyəti Qazax teatrının hazırladığı tamaşaya və aktyorların ifasına yüksək qiymət vermişlər. Festivalın bağlanış mərasimində 8 nominasiya üzrə mükafatlandırma olmuşdur. 12 müxtəlif teatr aktyorları arasında Qazax Dövlət Dram Teatrının rejissoru, Azərbaycanın Əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Xəzər Gəncəli "Ən yaxşı kişi rolu" nominasiyasında qalib olaraq 500.000 təngə (Qazaxıstan valyutası) pul mükafatına layiq görülmüşdür.



Vətənə dönən teatrın əməkdaşları rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşovla görüşmüşlər. O, kollektivi əldə etdiyi nailiyyətə görə təbrik etmiş, onlara gələcək fəaliyyətində uğurlar arzulamışdır. Teatrın direktor səlahiyyətlərini müvəqqəti icra edən Allahverdi Musayev, Əməkdar artist Xəzər Gəncəli onlara yaradılan şəraitdə əməyi olan hər kəsə minnətdarlıqlarını bildirmişlər.

## Gəncədə qanunsuz küçə ticarətinə qarşı mübarizə gücləndirilib

**Aparılan müşahidələr və sakinlərdən daxil olan müraciətlər göstərirdi ki, son zamanlar Gəncə şəhər ərazisində qanunsuz küçə ticarəti halları geniş yayılıb. Bu həm səki və yol kənarlarını zəbt edir, həm də şəhərdə antisanitar vəziyyət yaradırdı.**

Gözləmək olmazdı. Gəncə Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə şəhər ərazisində qanunsuz küçə ticarətinin qarşısını almaq üçün komissiya yaradıldı. Komissiyanın işçi qrupları bu cür ticarətin geniş yayıldığı ərazilərdə reydlər keçirməyə, aşkar edilmiş neqativ halların qarşısının alınması istiqamətində qanunamüvafiq tədbirlər görməyə başladılar. Paralel olaraq qanunsuz küçə ticarəti ilə məşğul olan şəxslərlə maarifləndirici və izahedici söhbətlər də aparıldı. Buna məhəl qoymayan şəxslər barəsində isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 454-cü maddəsinə uyğun olaraq protokollar tərtib edilir, səki və yol kənarlarında qurulan qanunsuz ticarət obyektləri yığışdırılır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvanda "İqlim dəyişikliyinin kənd təsərrüfatının inkişafına təsiri" geniş müzakirə olundu

**Azərbaycan Respublikası və Naxçıvan MR Kənd Təsərrüfatı nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən konfransın iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə güllər düzüblər.**



"Naxçıvan Palas"da öz işinə başlayan konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad ediləndən sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli aktual mövzuya həsr olunmuş konfransın işinə uğurlar arzulayıb və iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Qeyd edib ki, dünyada baş verən qlobal istiləşmə, quraqlıqların artması aqrar sektora, nəticədə ərzaq təhlükəsizliyi təminatına da mənfi təsir göstərir: "Təbii ki, bu, Naxçıvan iqtisadiyyatına da təsirsiz ötüşmür. Çünki kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının əsasını təşkil edir. Bu səbəbdən də muxtar respublikada ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi prioritet məsələlər sırasındadır".

S.Seyidəhmədli daha sonra bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" Naxçıvanda bu sahədə atılacaq addımların təməlini təşkil edir: "Sözügedən proqramda regionda ekoloji tarazlığın və bioloji müxtəlifliyin qorunması, yaşıllıqların mühafizəsi və artırılması əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilib. Bu da muxtar respublikada iqlim dəyişikliklərinin ətraf mühit komponentlərinə təsirlərinin minimuma endirilməsi işinə mühüm töhfə verəcək".

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini icra edən Xəyalə Dadaşova isə bildirib ki, məqsəd COP29-dan sonra iqlim dəyişikliyi problemlərinə qarşı görüləcək tədbirlərin birgə müzakirəsini aparmaqdır. Nazir müavini qeyd edib ki, iqlim dəyişikliyi kənd təsərrüfatında da məhsuldarlığa ciddi təsir göstərir: "Bu təsirləri azaltmaq üçün praktik addımlar atılması zəruri xarakter daşıyır".

Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov da vurğulayıb ki, qlobal iqlim dəyişikliyi yağıntıların davamlı azalmasına və su qıtlığının artmasına səbəb olur və bu kənd təsərrüfatı sektoru üçün ciddi çətinliklər yaradır: "Ölkəmizdə kənd təsərrüfatının inkişafı bir çox halda birbaşa su təchizatının yaxşılaşdırılmasından asılıdır. Bundan başqa, ölkə ərazisinin 15 faizi quraqlıq, 6 faizi isə səhralaşma təhlükəsi altındadır. Kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında mövcud su, torpaq və iqlim ehtiyatlarından daha səmərəli istifadə, kənd təsərrüfatı sahəsinin iqlim dəyişikliyinə uyğunlaşdırılması, su təchizatının yaxşılaşdırılması, müasir su təchizatı texnologiyalarının səmərəli tətbiqi mühüm rol oynayır".

Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov COP29-a evsahibliyi edən və bu mötəbər tədbiri uğurla başa vuran Azərbaycanın dünya ekosisteminin qorunması tədbirlərinə mühüm töhfələr verdiyini bildirib. Nazir müavini qeyd edib ki, bioloji müxtəliflik indiki və gələcək nəsillər üçün çox böyük dəyərə malik qlobal sərvətdir: "Lakin növlər və ekosistemlər heç vaxt indiki qədər böyük təhlükə altında olmayıb. Ölkəmizdə son 30 ildə havanın orta illik temperaturu əvvəlki dövrlə müqayisədə orta hesabla 0,9 dərəcə yüksəlib. Ərazinin əksər hissəsində yağıntının miqdarı orta hesabla 4 faiz azalıb. İqlim dəyişikliyi və bioloji müxtəlifliyin itirilməsi bir-biri ilə bağlı proseslərdir və birlikdə həll edilməlidir. Buna görə də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində qlobal iqlim dəyişikliklərinə cavab verən yüksəkkeyfiyyətli təmiz ekoloji mühitin təmin olunması kimi mühüm vəzifə müəyyənləşdirilib. Ölkəmizdə ətraf mühitin mühafizəsini və təbii ehtiyatların səmərəli istifadəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin keyfiyyətcə yeni mərhələdə davam etdirilməsi prioritet istiqamətdir".

Konfransda BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi rəhbərinin müavini Bariz Mehdiyev, Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Bitkiçilik Departamentinin müdiri İhsan Emiralioğlu və Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərovanın çıxışları dinlənilib. Çıxışlarda Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və COP29-un bu il ölkəmizdə keçirilməsi təcrübə mübadiləsi aparmaqla gələcək təşəbbüslərə, dayanıqlı inkişaf sahəsində əməkdaşlıq səylərinin gücləndirilməsi və tərəfdaş münasibətlərin yaranmasına mühüm töhfə kimi dəyərləndirilib.

COP29 və Naxçıvanda "yaşıl enerji" layihələrinə həsr olunmuş videoçarxların nümayiş etdirildiyi konfrans "Dayanıqlı kənd təsərrüfatı, qida və su təminatında iqlimin rolu" və "Elmi yanaşmalar və kadr potensialının artırılması" mövzularında panel müzakirələrlə işini davam etdirib.

*"Azərbaycan"*

## Şabran bağları bu payız da bar-bəhərlidir

**Artıq ilin elə vaxtına gəlib çatmışıq ki, hər kəs ötən aylar görülmüş işlərə bir daha nəzər salır, nəyə nail olduğunun və olmadığının səbəblərini təhlil edir, yeni ildə görəcəyi işləri planlaşdırır. Bu baxımdan şabranlı bağbanlar da istisna deyil.**

Şabran ölkəmizin şimal bölgəsində iqtisadi inkişafı ilə seçilən rayonlardan biridir. Dövlətin qeyri-neft-qaz sektorunu inkişaf etdirmək və iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq sahəsində qarşıya qoyduğu mühüm vəzifə burada da prioritet sayılır. Ötən illər həyata keçirilən iqtisadi siyasət nəticəsində bu istiqamətdə bir sıra nailiyyətlər də əldə olunub. Şabranlılar ölkədə qeyri-neft-qaz sektorunun şaxələndirilməsinə və bu sahədə daha çox məhsul istehsalına öz töhfələrini veriblər.

Hazırda rayonun ərazisində meyvə yığımı yekunlaşmaq üzrədir. Builki payız xüsusi bar-bərəkəti ilə seçilir. Bunu toplanan məhsulun həcmini göstərən rəqəmlər də təsdiqləyir: rayon üzrə 143,9 hektar xurma bağından 601,6 ton, 135,9 hektar nar bağından 311 ton, 205,9 hektar heyva bağından 1096,6 ton məhsul yığılıb. Şabranın xurma və narı dərilən kimi sahibkarlar tərəfindən öncədən bağlanmış müqavilələr əsasında satışa çıxarılıb. Bu da təbiidir - Şabranın ləziz dadı və əmtəə görkəmi ilə seçilən bu meyvələri bazarda müştəri sarıdan korluq çəkmir. Bağlardan həmçinin 1567 ton alma, 1232,8 ton armud, 311,4 ton ərik dərilib. Bu meyvələrin bir hissəsi emal müəssisələrinə təhvil verilib. Onu da qeyd edək ki, Şabran əriyi də yarmarka və bazarlarda ən çox alınan meyvələrdəndir. Bu meyvələrin üzərinə bağlardan toplanan 1207,5 ton şaftalını, 280,4 ton gavalını da gəlsək, onda Şabran torpağının nə qədər barlı-bəhərli olmasına şübhə yeri qalmaz.

Amma bunlar da hələ hamısı deyil. Hazırda rayonda badam yetişdirilməsinə də maraq çoxdur. Bu, Şabranda demək olar ki, yeni sahədir. Çünki cəmi iki il əvvəl badama rayonda o qədər də maraq yox idi. Bu gün isə vəziyyət tamam dəyişib - cari mövsüm rayon üzrə 150 hektara yaxın sahədən 50 tondan artıq badam yığılıb. Bir neçə müəssisə məhsulu almaq üçün bağbanlarla müqavilə bağlayıb. Ona görə də növbəti təsərrüfat ilində badam bağlarının sahəsinin genişləndiriləcəyinin nəzərdə tutulması təbiidir.



Bu il fındıq bağları da yaxşı bar verib. 516 tona yaxın məhsul toplanıb. Hazırda Şabranda 1171 hektar fındıq bağı var. Yazda yeni sahələrdə də fındıq tingləri əkiləcək. Yaxın illər fındıq satışının bu rayonun iqtisadiyyatına sanballı töhfə verəcəyi gözlənilir. Fındıqla bərabər qoza da tələbat artıb. Mövsümdə 70 hektar bağdan 113,3 ton qoz yığılıb ki, bu da əvvəlki ildə olduğundan xeyli çoxdur.

Şabranda 405,9 hektar üzüm bağı da var. Onun 273,4 hektarı süfrə və 132,5 hektarı şərab üzümü sahələridir. Şabranın üzümü şirinliyi ilə seçilir. Odur ki, qonaqlar Şabrandan üzümsüz dönməzlər. Bolluğa da söz ola bilməz. Təkcə cari mövsüm plantasiyalardan 3049,3 ton məhsul götürülmüşdür. Məhsuldarlıq 75,1 sentner olmuşdur. Yığılan meyvələrin böyük hissəsi ölkədaxili bazar və yarmarkalarda satılır. Yeri gəlmişkən, deyək ki, ayrı-ayrı bitkilər üzrə ixtisaslaşmanın, müxtəlif təsərrüfatların formalaşmasının da nəticəsi müsbətdir.

Əvvəlki illərə nisbətən bu il əldə edilən gəlir çox olduğundan növbəti mövsümdə rayonda yeni meyvə bağlarının salınması planlaşdırılır. Bu həm də ona görə yaxşıdır ki, meyvəçilik, bağçılıq əməktutumlu sahədir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Hindquşu festivalının ünvanı dəyişmir

**Biləsuvar şəhərindəki Mərkəzi Parkda rayon icra hakimiyyətinin və "Azər Home Chef" şirkətinin təşkilatçılığı ilə 4-cü "Hindquşu festivalı" keçirilib.**

Yerli və xarici qonaqların, ölkənin məşhur aşpazlarının da iştirak etdikləri festivalda çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov 4-cü dəfə keçirilən belə bir tədbirin turizmin inkişafına maraq baxımından böyük əhəmiyyət daşıdığını, milli mətbəximizin təbliğinə xidmət göstərdiyini bildirib. Milli Məclisin deputatı Bəhruz Məhərrəmov isə festivalla bağlı təəssuratlarını bölüşərək iştirakçılara xoş istirahət arzulayıb.

Festival zamanı hindquşundan hazırlanmış müxtəlif çeşidli yeməklər təqdim olunub. Ən dadlı yeməklər hazırlayan aşpazlar qiymətli hədiyyələrlə mükafatlandırılıb.



Tədbirdə həmçinin müxtəlif idman oyunları keçirilib, əl işlərindən ibarət sərgi və rəsm əsərləri nümayiş olunub. Bundan əlavə, yerli kənd məhsullarından ibarət satış yarmarkası və kənd həyatını əks etdirən guşə də sərgilənib. Festival geniş konsert proqramı və rəqslərlə müşayiət edilib.

## Təxminən bir əsr yarım yaşı olan park yenidən qurulur

**Şirvan şəhərinin "Köhnə şəhər" hissəsində - Kür çayının sahilində yerləşən İsmət Qayıbov adına Mədəniyyət və İstirahət Parkında genişmiqyaslı yenidənqurma və əsaslı təmir işlərinə başlanmışdır.**

Tarixi mənbələrdə 1880-ci ildə bağ kimi salındığı qeyd edilən, sovetlər birliyi dövründə "Lenin parkı", 1991-ci ildən isə İsmət Qayıbovun adını daşıyan parkın ərazisində Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun büstü qoyulmuşdur. Park Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə ölkə əhəmiyyətli bağ, park, monumental və xatirə abidəsi kimi qeydiyyata alınmışdır.

Ərazisi 2,5 hektar olan parkın mövcud vəziyyətini və şəhər əhalisinin çoxsaylı müraciətlərini nəzərə alaraq onun yenidənqurma layihəsi hazırlanmışdır. Layihədə parkın ərazisində 1790 kvadratmetr tamet tavalar döşənməsi, 3 min 23 paqonometrdən çox beton bordürlərin düzülməsi, 5 min 435 kvardatmetrdən bir qədər artıq asfalt-beton örtük vurulması, 5 idman qurğusunun, turnik kompleksinin, uşaq əyləncə qurğusunun, 40 işıq dirəyinin quraşdırılması, 30 müasir oturacağın və 30 tullantı qutusunun, park informasiya lövhəsinin qoyulması, 648 paqonometr yeraltı elektrik xəttinin və 865 paqonometr su xəttinin çəkilməsi, parkın mövcud giriş hissəsinin, istinad divarının, sanitar qovşağının, səhnə-kölgələnəcəyin əsaslı təmir olunması nəzərdə tutulmuşdur.



Artıq yararsız monolit beton səki daşları, işıq dirəkləri, oturacaqlar sökülərək ərazidən daşınmışdır. Su və işıq xətlərinin çəkilməsi, ağacların budanması, yeni beton bordürlərin düzülməsi, istinad divarının və sanitar qovşağının əsaslı təmiri isə davam edir.

Parkın yaxın zamanda şəhər sakinlərinin və qonaqların istifadəsinə verilməsi planlaşdırılır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

Tarix olduğu kimi

**2020-ci il noyabrın 8-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi, mədəni və strateji əhəmiyyətə malik olan Şuşa şəhərini - Qarabağın tacını işğalçılardan azad etdi. Bu, İkinci Qarabağ müharibəsi ərzində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Şuşanın işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə ciddi təsir göstərdi, hərb meydanında olduğu kimi, diplomatiya meydanında da Azərbaycanın uğurlarını şərtləndirdi və xalqımızın tarixinə Zəfər Günü kimi yazıldı.**

**Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamda vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir.**



# QARABAĞIN MEHMANDARLARI

Bununla yanaşı, sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir.

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq eyni zamanda tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirmişdir. Bu baxımdan Şuşa işğaldan azad edildikdən sonra şəhərin bərpası istiqamətində işlərə başlanıldı.

Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə, xüsusilə Şuşada 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlamışdır. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi fəal dəstəyini göstərir. Aparılan genişmiqyaslı işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunmuşdur.

Heydər Əliyev Fondu artıq Şuşada bir neçə layihənin bərpasını başa çatdırmışdır. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin bərpadan sonra açılması və heykəlinin Şuşada yenidən ucaldılması, Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı, Mamayı məscidlərinin, Milli Xalça Muzeyinin Şuşa filialının, Yaradıcılıq Mərkəzinin, "Şirin su" hamamının əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin bərpa olunan məzarı və digərləri daxildir.

Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir. 2023-cü il mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak etdilər.

## Şuşanın Mehmandarovlar soyu

Mehmandarovlar Qarabağın, Şuşanın qədim və məşhur soylarındandır. Bu soyun tarixçəsinə gəldikdə mənbələrdə qeyd edilir ki, Qarabağ xanlığının idarəetmə aparatında bir çox hərbi və mülki vəzifə mövcud olmuş və bu vəzifələrdən biri də mehmandar ("qonaqpərvər", "qonaqsevər") idi. Mehmandarın vəzifəsi xarici dövlətlərin nümayəndələrini və digər rəsmi qonaqları ölkənin sərhədində qarşılayaraq müşayiət etmək, hörmətlə xanlığın paytaxtına gətirib yerləşdirmək, həmçinin onların istirahətlərini yüksək səviyyədə təşkil etmək olmuşdur. Bununla yanaşı, mehmandarlar xanlığa gələn qonaqların məktublarını saraya, xanın məktublarını isə onlara çatdırmaq vəzifəsini də yerinə yetiriblər. Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin və oğlu Mehdiqulu xanın hakimiyyətləri dövründə bu şərəfli və məsuliyyətli vəzifəni Mirzə Əli bəy həyata keçiribdir. Bu səbəbdən də 1830-cu illərdə Azərbaycanda yeni soyad sistemi formalaşarkən Mirzə Əli bəyin övladları və bu nəslin görkəmli nümayəndələri babalarının keçmiş vəzifəsini özlərinə soyad götürmüş və bütün





rəsmi dövlət sənədlərində Mehmandarovlar kimi qeydə alınmışlar.

Mirzə Əli bəy yaşı ilə əlaqədar mehmandarlıq vəzifəsindən istefaya çıxarkən Mehdiqulu xan Cavanşir bir çox mükafatla yanaşı, ona Şuşanın qədim 17 məhəlləsindən biri olan, "Təzə məhəllə" adı ilə tanınan yerdə əlavə torpaq sahəsi də bağışlamışdı. Mirzə Əli bəy də burada o dövrün tanınmış memarı olan Kərbəlayi Səfixan Qarabağinin rəhbərliyi ilə heç bir binaya bənzəməyən malikanə tipli saray kompleksi inşa etdirmişdi. Qarabağ xanının mehmandarı Mirzə Əli bəyin üç oğlu olub: Mirzə Həsən bəy, Mirzə Sadıq bəy və Mirzə Mustafa bəy.

Mirzə Əli bəyin kiçik oğlu Mirzə Mustafa bəy Mehmandarov 1825-ci ildə Şuşa şəhərində anadan olub. Şuşa qəza məktəbini bitirən Mustafaya savadlı olduğuna görə şuşalılar "Mirzə" deyə müraciət etmişlər. 1843-cü ildə Şuşa qəza idarəsində katib işləmiş Mirzə Mustafa bəy Mehmandarov 1870-ci ildən Şuşa və Zəngəzur qəzalarında seçki üzrə ali müsəlman silkindən Şuşa bəy komissiyasının üzvü olmuş, kollec katibi, müşavir, xeyriyyəçi, xəttat, publisist kimi tanınmışdır. Şuşada qardaşı oğlu Qasım bəy Mehmandarovla birlikdə susuzluqdan əziyyət çəkən "Təzə məhəllə" sakinləri üçün 1899-cu ildə su çəkdirmiş və hər ikisinin vəsaiti hesabına yerli daşlardan memarlıq abidəsi sayılan gözəl bir bulaq tikilmişdir. "Təzə məhəllə" bulağı adlanan bu bulaq bir əsrə yaxın, yəni Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğalına qədər məhəllə sakinlərinin ehtiyacını təmin etmişdir.

## Tanınmış həkim, xeyriyyəçi, maarifçi və ictimai xadim

170 il əvvəl Mirzə Mustafa bəyin böyük oğlu, ilk ali təhsilli azərbaycanlılardan biri olan Əbdülkərim bəy Mehmandarov 1854-cü il dekabrın 2-də Şuşada anadan olmuşdur. O, Şuşa qəza məktəbini əlaçı şagird kimi, daha sonra 1872-ci ildə Bakı şəhər gimnaziyasını qızıl medalla bitirərək Sankt-Peterburq Tibb Cərrahlıq Akademiyasına daxil omuş, 1877-ci ildə akademiyanı bitirib Sankt-Peterburq klinik hərbi xəstəxanasında həkim işləmişdir. O, 1881-ci ildə 162-ci Axaltski piyada alayının kiçik həkimi vəzifəsinə təyin edilmiş, 1883-cü ilin yanvarında isə Yelizavetpol quberniyasının Cavanşir qəzasına həkim göndərilmişdir. Bununla da o, hərbi xidmətdən mülki xidmətə keçmiş və sonrakı bütün fəaliyyətini doğma Qarabağda səhiyyə və mədəni-maarif işlərinə həsr etmişdir. 1893-cü ildə Qafqaz həkimlərinin Tiflisdə keçirilən I Qurultayında fəal həkim kimi iştirak etmiş və bölgədəki vəba epidemiyası haqqında hesabat vermişdi.

Əbdülkərim bəy Mehmandarov 1895-ci ildən həkimlik fəaliyyətini Ağdamda və Şuşada davam etdirmiş, sonra Şuşada əvvəlcə "Difai" Partiyası Şuşa komitəsinin sədri, daha sonra isə komitənin əsasında yaradılan Qarabağ Birlik Məclisinin rəhbəri olmuşdu. O, Azərbaycanda ilk dəfə olaraq Qafqaz mülki idarəsinin əmri ilə Yelizavetpol (Gəncə) quberniyasının Cavanşir qəzasına həkim təyin edilmişdi. On il burada işləyən Əbdülkərim bəy 1895-ci ildən Şuşa qəzasında kənd həkimi vəzifəsində çalışmışdır. Həmin ildə Məmmədrza ağa Vəkilov və Əbdülxalıq Axundov ilə birgə Bakı Tibb Cəmiyyətini təsis etmişdir. Onun xeyriyyəçilik fəaliyyəti daha geniş olmuş, Əhməd bəy Ağaoğlu ilə birlikdə Şuşada xəstəxana və yetim qalmış uşaqlar üçün məktəb və qiraətxana açmışdır. O həm də Şuşa Xeyriyyə Cəmiyyətinin sədri kimi bir çox xeyirxah iş görmüş, 1911-ci ildə onun təşəbbüsü ilə Şuşada ilk dəfə qızlar məktəbi açılmışdır. Onun Şuşadakı xeyriyyəçilik fəaliyyətində Həmidə xanım Cavanşirin çox böyük köməyi olmuşdur. Əbdülkərim bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə də səhiyyənin inkişafı, əhaliyə tibbi yardımın təşkili işləri üçün böyük xidmətlər göstərmişdir. Sovet hakimiyyəti onu siyasi baxışlarına görə təqib etmiş, ona fiziki və mənəvi iztirablar vermişdir. O, 1929-cu ildə vəfat etmişdir.

Əbdülkərim bəy Mehmandarovun oğlu Rəşid bəy Mehmandarov 1887-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şəhər realnı məktəbini bitirdikdən sonra Tiflis hərbi məktəbinə daxil olmuş Rəşid bəy Mehmandarov daha sonra Kiyevdə ali təhsil almış, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli ordunun zabiti kimi xidmət etmişdir. O, 1937-ci ildə qardaşı Ədil bəy Mehmandarov kimi tutulub Bakıya gətirilmiş və 1938-ci ildə güllələnmişdir.

Rəşid bəyin qardaşı Ədil bəy Mehmandarov 1889-cu ildə Şuşada anadan olmuşdur. O, Şuşa Realnı Məktəbini bitirəndən sonra Bakı şəhərində feldşerlik kursunda oxumuşdur. Ədil bəy Mehmandarov bir müddət Şuşa Şəhər Xəstəxanasında çalışmış, sonra Kiyev Politexnik İnstitutuna daxil olmuş, burada Qafqaz Həmyerlilər Cəmiyyətinin üzvü kimi fəaliyyət göstərmişdir. Daha sonra doğma şəhərə qayıdaraq ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, şəhər bələdiyyəsində işləyərək Şuşanın abadlığı üçün çalışmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra 1927-ci ildə siyasi fəaliyyətinə görə həbs edilmiş, lakin bir müddət sonra azadlığa buraxılmış, müəllimliyə başlayaraq Şuşa Pedaqoji Texnikumunda dərs demişdir. Ədil bəy Mehmandarov 1930-cu ildə yenidən həbs olunsa da, azad edilmiş və iş yerinə qayıtmışdır. Sonuncu dəfə 1937-ci ildə tutularaq Bakıya aparılmış və güllələnmişdir.

## Qədim tarixə malik memarlıq abidəsi

Memarlıq abidəsi sayılan Mehmandarovlara məxsus malikanə kompleksinə böyük yaşayış evi, kiçik yaşayış evi və məscid daxildir. Həmçinin daha sonralar məscidə gedən yolun üstündə bulaq tikilmişdir. Mehmandarovların malikanə kompleksi ilk dəfə 1977-1978-ci illərdə Azərbaycan SSR Mədəniyyət Nazirliyi tərəfindən pasportlaşdırılmışdır. Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialının əsası Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 1985-ci il 26 sentyabr tarixli 502 nömrəli əmrinə əsasən qoyulmuşdur. XIX əsrə aid tarixi memarlıq abidəsi olan Mehmandarovlar ailəsinə məxsus malikanə kompleksində 1987-ci il 19 may tarixdən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin (indiki Azərbaycan Milli Xalça Muzeyi) Şuşa filialı fəaliyyətə başlamışdır. Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğalı zamanı filialdakı daşınması mümkün olan eksponatlar təxliyə olunaraq Bakıya gətirilmişdir. Bundan əvvəl isə sovet dövründə Mehmandarovların böyük yaşayış binasında Şuşa Şəhər Xəstəxanası fəaliyyət göstərmişdir. Yaşayış kompleksinə daxil olan, 1984-cü ildən etibarən Şuşada təbii dərman vasitəsi kimi istifadə edilən bitkilərin toplandığı məhəllə məscidi isə "Yaşıl aptek" kimi fəaliyyət göstərmişdir.

Şuşanın azad edilməsindən sonrakı dövrdə - 2021-ci ilin oktyabrından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilmişdir. Kompleksə daxil olan evin və məscidin binalarının dam örtükləri yenilənmiş, tavanlar bərpa edilmişdir. Bununla yanaşı, malikanə kompleksinin dağılmış divarı bərpa olunmuş, zədəli divarda bərkitmə işləri aparılmış, həmçinin məscidin "Güldəstə"si restavrasiya olunmuşdur. Evin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilmişdir.

Görülmüş işlərdən sonra malikanə kompleksində "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu - XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülmüşdür. Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilmişdir.

Zadəgan malikanəsinin qonaq otağı evin siması olduğundan burada ən müasir interyer elementlərindən istifadə edilmişdir. Fotolar Şuşanın tanınmış zadəgan nəsilləri - Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir. Malikanədəki otaqları milli əşyalarla yanaşı, Avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu - XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilmişdir. Artıq burada ziyarət edən hər bir kəs özünü XIX əsrin sonu - XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etmiş olur. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilmişdir.

Artıq işğaldan azad edilmiş Şuşada keçirilən mühüm tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilir. Bu baxımdan əminliklə söyləyə bilərik, 2021-2024-cü illərdə keçirilən mühüm tədbirlər bir daha onu təsdiq edir ki, Şuşa Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı olmaqla yanaşı, həmçinin ictimai fikir və milli-ideoloji mərkəzinə çevrilməkdədir.

***Elçin ƏHMƏDOV,***
***professor, siyasi elmlər doktoru***

# Daha 34 ailə yurd sevinci yaşadı

## Cəbrayılın artıq 1000-ə yaxın sakini var



**Dünən Cəbrayıl şəhəri 129 nəfərdən (34 ailə) ibarət növbəti qayıdış karvanını qarşılayıb. Uzun illərin həsrətindən sonra mərhələli olaraq dədə-baba yurdlarına qayıdan cəbrayıllıların sayı artıq 912 nəfərə çatıb. 2024-cü ilin sonuna qədər isə Cəbrayıl şəhərinə 2158 keçmiş məcburi köçkünün qayıtması nəzərdə tutulub.**





Bu günü həsrətlə gözləyən cəbrayıllılar təəssüratlarını bölüşüblər. Doğma elinə qovuşduğu üçün sevinci çöhrəsindən oxunan keçmiş məcburi köçkün İntizam Nurəliyev qürurverici tarixin şanlı səhifələrinə şahidlik etdiklərini deyir: "Tarixi günlər yaşayırıq. 30 illik torpaq həsrətilə yaşayan xalq üçün bu, ən böyük hədiyyədir. Şükürlər olsun ki, torpaqlarımız düşmən işğalından azad edilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə şəfa versin. Yurdumuza qovuşmağımızda ən xırda əməyi belə olan hər kəsə təşəkkürümü bildirirəm. Sağ olsunlar, var olsunlar. Bircə heyifsiləndiyimiz məqam odur ki, bəzi doğmalarımız Cəbrayılı görmək arzusu ilə həyatdan köçdülər".

Uzun illərdən sonra ilk dəfə doğma torpağına addım atdığını söyləyən Cəbrayıl sakini Mahirə Niftəliyeva ən böyük arzusunun çin olduğunu söyləyir: "Özü də hər bir şəraitlə təmin olunmuş evlərə gedirik. Həmişə baxıb həsəd aparırdım. Arzu edirdim ki, mən də tezliklə öz yurduma qayıdım. Təəssüflənirəm ki, bu illər ərzində itkilərimiz də oldu. Həyat yoldaşım həyatdan köçdü. Ancaq şükürlər olsun, bu gün ailəmlə - övladlarım, nəvələrimlə yurduma qayıda bilirəm. Bundan sonra ancaq yaxşı günlər yaşayacağımıza inanıram. Bugünkü günü bizə yaşadanlar var olsunlar".

Keçmiş məcburi köçkün Pəri Xudiyevanın sözlərinə görə, illərdir xəyallarında yaşatdığı yerlərə, gəncliyinə, xatirələrinə qovuşub: "Allah həsrətində olanların hamısına belə gün nəsib etsin. Çox sevinirik. Bu işdə əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. Hamıya belə xoş gün nəsib olsun, öz torpağına getsin. Bunlar əvəzolunmaz hisslərdir. Burdan çıxanda cavan idim. İndi 65 yaşım var. 42 il məktəbdə müəllim işləmişəm, yenicə təqaüdə çıxmışam. Bundan sonra rayonumuzda istirahətimi davam etdirəcəm. Qalan ömürümü burada keçirmək istəyirəm".

Müharibədən qısa müddət sonra azadlığına qovuşmuş yurd yerlərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi nəticəsində Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən öz axarına qayıdır, torpaqlarından zorla didərgin salınan vətəndaşlarımız fərəh və qürurla yeni həyata başlayırlar. İndiyədək 2367 ailə - 9139 nəfər doğma ocağına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 237 ailə (912 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

2026-cı ilin sonu - Böyük qayıdışın birinci mərhələsi bitənədək Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək. Qüdrətli dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü və genişmiqyaslı işlər sayəsində keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan hədəflərin uğurla gerçəkləşdiriləcəyindən əminik.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***









  

# Mədəniyyət

  

● İncəsənət xadimlərimiz

# Klassik musiqi ənənələrinə sadiq bəstəkar

**Onun musiqilərindən daim işıq süzülür. Hər bəstəsi insanlara saflıq, səmimiyyət, sevgi dolu hisslər aşılayır. Əsərləri təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda - MDB məkanında, Türkiyədə, Almaniyada, Fransada, Amerika Birləşmiş Ştatlarında, İsveçdə səslənmiş bu xanım bəstəkarın musiqisi hamı üçün anlaşıqlıdır. Çünki bu musiqinin dinləyicilərinin həmsöhbəti ən səmimi, ən gözəl melodiyaların "dili" ilə danışan, özünəməxsus yaradıcılığı olan Azərbaycan bəstəkarıdır.**

Respublikanın Əməkdar incəsənət xadimi, Xalq artisti, görkəmli bəstəkar, professor Sevda İbrahimovanın bu il 85 illik yubileyidir.

O, məşhur tarzən Qurban Pirimovun qız nəvəsi, Xalq yazıçısı Mirzə İbrahimovun övladıdır. Anası Sara Pirimova gözəl pianoçu və müəllim idi. O, ilk azərbaycanlı qızlar sırasında 1939-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdi.



İlk musiqi təhsilini Sevda İbrahimova Bülbül adına orta ixtisas musiqi məktəbində, bir sıra mahir pianoçuların müəllimi olmuş M.Bıkovadan alır. Sonra konservatoriyaya daxil olur. İki ali musiqi təhsili ala bilir. 1962-ci ildə konservatoriyanı fortepiano sinfi üzrə bitirir. Burada ona M.Brenner dərs deyir. Bəstəkarlıq üzrə isə Sevda xanım məşhur Qara Qarayevin sinfində oxuyur.

Hələ Bülbül adına məktəbdə S.İbrahimova ilk bəstələrini professor B.Zeydmana göstərir. Yeniyetmə qızın ilk əsərlərində Şərq və Avropa musiqisinin sintezi özünü qabarıq şəkildə büruzə verir. Sonra böyük bəstəkar Qara Qarayev istedadlı tələbəsinin bu xüsusiyyətlərini mütləq qoruyub saxlamasına çalışır. Məhz Qara müəllimin son dərəcə həssas, qayğıkeş münasibəti, rəhbərliyi sayəsində Sevda xanım peşəkarlığa və fərdi bəstəkarlıq üslubuna yiyələnir.

1964-cü ildə S.İbrahimova konservatoriyanın bəstəkarlıq sinfini də bitirir. Diplom işi fortepiano ilə orkestr üçün yazılmış "Poema" əsəri olur. Dövlət imtahanında əsərini fortepianoda özünün ifa etməsi onun gələcək yaradıcılığından - həm bəstəkarlıq, həm də ifaçılıq məharətindən xəbər verirdi. Təsadüfi deyil ki, 1965-ci ildə bu əsər ilk "Zaqafqaziya baharı" musiqi festivalının proqramına daxil edilir və müəllifin özü tərəfindən ifa olunur.

Musiqişünas Lalə Dadaşova həmin dövrü belə xatırlayır: "Bəstəkar Sevda İbrahimovanın adını ilk dəfə 60-cı illərin ortalarında eşitmişəm. Bakıda "Zaqafqaziya baharı" festivalı keçirilirdi və biz, musiqi elmini hələ təzə-təzə öyrənməyə başlayanlar konsertlərin afişalarını, mətbuatı maraqla izləyir, özümüz üçün yeni adlar, yeni əsərlər kəşf edirdik.

Konservatoriyanı Q.Qarayevin (bəstəkarlıq) və M.Brennerin (fortepiano) sinifləri üzrə təzəcə bitirmiş, iştirakçıların ən cavanı, füsunkar Sevda festivalda fortepiano və orkestr üçün "Poema" ilə çıxış etdi. Hələ onda mütəxəssislər gənc müəllifin musiqi alətinin özəllikləri ilə bağlı yüksək biliyini, təqdim olunan əsərin peşəkar orkestrovkasını vurğuladılar, məşhur ustadı Qara Qarayev isə Sevdanı istedadlı bəstəkar adlandırdı, onun "Poema"sında fortepiano klassikasının ən yaxşı ənənələri və Azərbaycan xalq musiqisinin bağlılığını diqqətə çatdırdı".

Sevda xanım ani populyarlıq qazanmaq, dinləyicini necə olursa-olsun, cəlb etmək istəyən, başqa sözlə, asan şöhrət dalınca gedən bəstəkar deyildi. Onun əsərlərində həm dərin xəlqilik, həm də son dərəcə fərdilik vardı. Bu da S.İbrahimovanın musiqisinə həmişə özünəməxsusluq gətirirdi. Bütün bunlarla yanaşı, Sevda xanım musiqidə emosional ifadəliliyi başlıca şərtlərdən sayırdı.

## Yaradıcılığı çoxşaxəli idi

O, opera, instrumental və vokal əsərlər, mahnı və romanslar, filmlərə musiqi və uşaqlar üçün nəğmələr yazıb. Bəstəkarın hansı mövzu və janra müraciət etməsindən asılı olmayaraq, orada onun həm şəxsi istedadı, həm keçdiyi məktəb, həm də Azərbaycan xalq musiqisi ənənələrinə sədaqət özünü bariz şəkildə göstərir.

Bəstəkarın müəllif konsertləri də yüksək səviyyədə, tamaşaçı heyranlığı və böyük alqışlarla keçirdi. Onun yaradıcılığında xüsusi yer tutan "Qarabağnamə" tar üçün konsertin orkestrlə ifası, "Qurbansız qalan tarım" elegik əsərinin cazibəsi, "Tez gəl" romansı, "Həqiqət üzüyü" operası, fortepiano və kamera orkestri üçün konsertino, Mirzə İbrahimovun xatirəsinə həsr etdiyi "Etiraf" və digər əsərləri dinləyiciləri məftun edirdi.

Bəstəkar Vasif Adıgözəlov çıxışlarının birində həmkarının yaradıcılığını belə səciyyələndirib: "Sevda İbrahimova Azərbaycan qadınları arasında ən istedadlı bəstəkardır. Onun yaradıcılığı Azərbaycanın milli-mədəni əlaqələri ilə sıx bağlıdır. O, Mirzə İbrahimov kimi görkəmli bir ziyalının ailəsində böyüyüb boya-başa çatıb, dahi Qara Qarayevin bəstəkarlıq məharəti məktəbini keçib. Tale Sevdanı istedadla, təmiz və açıq ürəklə mükafatlandırıb. Onun yaradıcılığı, məzmunlu daxili aləmi ahəngdar milli üslublu mövzularla, dərin psixoloji obrazlarla zəngindir".

Bəstəkar hər bir janra, hər bir sahəyə məsuliyyətlə yanaşırdı. Buna görə də hər əsərdə öz sözünü deməyə müvəffəq olurdu. Buraya bəstəkarın operaları, simfonik əsərləri, mahnıları və sair daxildir.

Sevda İbrahimova vətəndaş-bəstəkar idi. Vətən sevgisi onun əsərlərindən qırmızı xətlə keçirdi. Üstəlik, bir ana kimi çağdaş dünyamızda baş verən hadisələrə, öz vətənində hər gün, bəlkə də hər an yaşanan olaylara laqeyd qala bilmirdi. Onun əsərlərində keçirdiyi hiss və duyğular, ətrafında baş verənlərə münasibəti öz əksini tapırdı. 1991-ci ildə qoboy və piano üçün "Qəmginlik", 1994-cü ildə iki piano üçün "Azərbaycan təranələri" pyeslər silsiləsi, 1999-cu ildə tar və simli orkestr üçün "Sənin üçün darıxıram, Şuşam", 2001-ci ildə simli orkestr üçün "Vətən düşüncələri" əsərlərini yazır.

## Əsərlərində musiqi ilə poeziya sıx vəhdət yaradırdı

Bu xanımda sözə, sözün dəyərinə olan diqqət və sevgi yüksək səviyyədə idi. Məhz bu səbəbdən onun əsərlərində musiqi ilə poeziya sıx bir vəhdət yaradır. Bəstəkarın Nizaminin, Şəhriyarın, Səməd Vurğunun, Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Hikmət Ziyanın və başqa şairlərin sözlərinə yazdığı mahnı və romanslarını xatırlamaq kifayətdir. Bu baxımdan Sevda xanımın Azərbaycan şairlərinin sözlərinə bəstələdiyi "Vətən şəhidləri" kantatası, "Sevirəm", "Əbədi yurdum" vokal silsilələri çox dəyərlidir.

Sevda İbrahimovanın yaradıcılığında bir sıra sənədli və bədii filmlərə yazdığı musiqi də xüsusi yer tutur. Hələ keçən əsrin 60-80-ci illərində "Əzim Əzimzadə", "Yazıçının bir günü", "Peşmançılıq", "Min bir xəzinə", "Nar", "Odlu ürək" kimi filmlər bəstəkarın musiqisi ilə daha baxımlı və maraqlı olmuşdur. O, bu istiqamətdə yaradıcılığını sonralar da davam etdirmişdir. Musiqi nəzəriyyəçiləri yazırlar ki, onun filmlərə bəstələdiyi musiqi ayrıca səsləndikdə sərbəst bir əsər təsiri bağışlayır. Bu da, əlbəttə, bəstəkarın böyük istedadını bir daha təsdiqləyir.

Sevda xanımın yaradıcılığında zaman-zaman itirdiyi əzizlərinin xatirəsi də öz əksini tapıb. O, babasının xatirəsinə "Qurbansız qalan tarım" adlı kamera əsəri yaradıb. Atası Mirzə İbrahimovun sözlərinə "Laylay" nəğməsini bəstələyib. "Əhval-ruhiyyələr" silsiləsindən pyeslərini anası Sara xanımın xatirəsinə həsr edib. Həmin silsilədən olan "Məhəbbət işığı" adlı pyesində isə bəstəkar öz ömür-gün yoldaşı Arif müəllimi sevgi və nisgillə xatırlayır.

AMEA-nın müxbir üzvü, professor, Əməkdar elm xadimi Zemfira Səfərovanın fikrincə, bu əsərlərə ümumi bir ad - "Əzizlərimin xatirəsinə" adını da vermək olar. Həmin əsərlərin mövzusunun dramatik xüsusiyyətinə, faciəvi yönümünə baxmayaraq, musiqinin səmimiliyi, melodik və işıqlı olması dinləyicidə xoş duyğular, xoş əhvali-ruhiyyə oyadır.

## İstedad, səmimiyyət, təmiz münasibət

Sevimli bəstəkarımıza həmişə səmimi münasibət bəsləyən, onunla müxtəlif mərhələlərdə əməkdaşlıq edən Zemfira xanım yazır: "Mən Qara Qarayevin elmi-publisistik əsərlərinin məcmuəsini çapa hazırlayırdım... Bu kitabla əlaqədar növbəti görüşümüz zamanı o, məndən gənc qadın bəstəkarlara münasibətimin necə olduğunu soruşdu və istedadlı, gələcəklərinə böyük ümid bəslədiyi bir neçə xanım bəstəkarın adını çəkdi. Onlardan biri Firəngiz Əlizadə, o birisi yaradıcılığından bəhs etdiyim Sevda İbrahimova və üçüncüsü Afaq Cəfərova idi. Qara müəllim mənə məsləhət gördü ki, onların yaradıcılıqları ilə tanış olum. Mən bu məsləhətə riayət edərək o vaxtdan həmin bəstəkarların yaradıcılığı ilə maraqlandım və hətta onlar haqqında yazılar da yazdım. Sevda xanımı mən çoxdan tanıyırdım. Biz eyni vaxtda xüsusi musiqi məktəbində oxumuşduq (indi Bülbül adına məktəb). Sonralar hər ikimiz bu məktəbdə işləmişdik... Mən böyük xanəndə, təkrarsız səsə malik Cabbar Qaryağdıoğlu haqqında "Şərq musiqisinin peyğəmbərləri" adlı kitab yazdım. Redaktoru mənim təklifimlə Sevda İbrahimova oldu. Məlumdur ki, Cabbar Qaryağdıoğlunun məşhur triosunda uzun illər boyu tarzən kimi Sevda xanımın babası - mahir ifaçı Qurban Pirimov çıxış etmişdi... Redaktorluqla əlaqədar mən Sevda xanıma müraciət edərkən o, məmnuniyyətlə razılaşdı və sonra mənə təşəkkürünü bildirdi ki, ona sanki keçmiş dövrü yaşatdım".

Sevda İbrahimova öz üslubunu uşaq musiqisində də tapmış, mahnılarında canlı, dəqiq və bədii dəst-xətni yaratmışdır.

O, uşaqlar üçün musiqi yazmaq işinə ciddi baxırdı. Onun uşaqlarla işləmək haqqında öz mülahizələri var idi. Bəstəkar qeyd edirdi ki, uşaqlarda musiqini duyma qabiliyyətini artırmaq üçün onların eşitdiklərini şəkildə əks etdirmələri çox vacibdir. Əgər mümkün olarsa, çalınan pyesin musiqisini səslə oxumaq da yaxşı olardı.

Sevda xanım ayrı-ayrı illərdə uşaqlar üçün fortepiano musiqisi, çoxsaylı mahnılar, səhnə əsərləri, o cümlədən "Nənəmin nağılları" operasını yazıb.

Sevda İbrahimova Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1989-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 2005-ci ildə isə ona Azərbaycanın Xalq artisti fəxri adı verilib. 1994-cü ildə professor elmi adını alıb.

Görkəmli bəstəkarın 150-dən çox yetirməsi olub. O, müxtəlif janrlarda iki opera, iki kantata, iki kvartet, fortepiano və orkestr üçün üç konsert, fortepiano və orkestr üçün konsertino, fantaziya, orqan və orkestr üçün konsert, skripka və orkestr üçün musiqi, fortepiano üçün silsilə pyeslər, "Əhval-ruhiyyələr", "Azərbaycan təranələri", teatr və kino üçün romans və mahnılar yazmışdır.

Sevda xanım elə bir insan idi ki, ətrafındakıların hamısı yaşından asılı olmayaraq, onu özlərinə dost hesab edirdilər. Təbiət ona bəstəkarlıqla yanaşı, müəllimlik istedadı da vermişdi. Tez-tez tələbələrinin kiçik, bəzən də böyük tamaşaçı auditoriyası qarşısında konsertlərini təşkil edirdi.

Şöhrətpərəstlik, qazandığı nailiyyətlərdən qürurlanmaq Sevda xanımın xarakterinə yad xüsusiyyətlər idi. O, həmişə axtarışlar aparar, yeni melodiyalar haqqında düşünərdi. Bəstəkar Sevda İbrahimova 2022-ci ildə 83 yaşında həyata vida etmişdi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ankarada dahi Füzulinin yaradıcılığına həsr olunmuş tədbir keçirilib

**Ankarada keçirilən 21-ci Kitab Sərgisi çərçivəsində böyük şair və mütəfəkkir Məhəmməd Füzulinin "Füzulinin divanı" adlı əsərlər toplusunun təqdimatı olub.**



Azərbaycan Mədəniyyət Nazirliyinin və ölkəmizin Türkiyədəki səfirliyinin nəzdində fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə diplomatlar, alimlər, ədəbiyyatşünaslar, iki qardaş ölkənin ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Təqdimat mərasimini açan Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov dahi Füzulinin öz yaradıcılığı ilə bütün türk dünyasının ədəbi-bədii fikrini zənginləşdirdiyini qeyd edib.

O xatırladıb ki, dahi şairin 500 illik yubileyi Azərbaycan üçün çətin dövrə, ölkə ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyi vaxta düşüb. "Vəziyyətin mürəkkəbliyinə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə Füzulinin yubileyinə həsr olunmuş təntənəli tədbirlərin keçirilməsi barədə qərar qəbul etdi", - deyə S.Abbasov bildirib.

"Böyük şair və mütəfəkkirin ölməz bədii-fəlsəfi irsi Azərbaycanın ədəbi fikir tarixində mühüm rol oynamış, Şərqin bir çox xalqlarının ədəbiyyatına mühüm təsir göstərmişdir", - deyə Mədəniyyət Mərkəzinin rəhbəri qeyd edib.

O həmçinin bildirib ki, "Füzuli divanı"nın təqdimatı dahi Azərbaycan şairinin 530 illik yubileyinə təsadüf edib.

Qazi Universitetinin (Ankara) Türk dili və ədəbiyyatı kafedrasının müəllimi, professor İsmet Çetin Füzuli irsini təkcə türk dünyasının deyil, bütün bəşəriyyətin sərvəti adlandırıb.

Professor Çetin qeyd edib ki, Türkiyədə Füzuli irsinin öyrənilməsi ilə bağlı ilk akademik iş 1940-cı illərə təsadüf edib. Həmin dövrdən indiyədək təkcə Türkiyədə Füzuli irsi mövzusunda 70 müxtəlif əsər nəşr olunub.

Azərbaycan Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov çıxışında qeyd edib ki, Azərbaycan, ərəb və fars dillərində 16 böyük əsəri olan dahi şairin yaradıcılığı bədiiliyi, incəliyi və orijinallığı ilə seçilir.

N.Cəfərov Füzuli irsinin öyrənilməsində görkəmli yazıçı, alim və pedaqoq Mir Cəlal Paşayevin xidmətlərini də vurğulayıb.

O, Mir Cəlal Paşayevin 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" əsərinə görə filologiya elmləri namizədi alimlik dərəcəsi aldığını, 1958-ci ildə yenidən bu mövzuya müraciət edərək "Füzuli sənətkarlığı" adlı monoqrafiyasını nəşr etdirdiyini xatırladıb.

Gəncə Nizami Gəncəvi Mərkəzinin direktoru Əlimuxtar Muxtarov qeyd edib ki, bir çox yerli və xarici tədqiqatçılar Məhəmməd Füzulini Azərbaycan-türk ədəbiyyatı tarixində ən həssas lirik və romantik şair adlandırıblar.

Onun sözlərinə görə, Füzulinin əsərləri islam dünyasının parlaq mənəvi xəzinələrindən biridir. "Füzulinin qəzəllərində əks olunan məhəbbət onun dini etiqadının, əqidəsinin, prinsiplərinin bədii ifadəsidir", - deyə Ə.Muxtarov qeyd edib.

Tədbir "Azərbaycan rüzgarları" musiqi qrupunun çıxışı ilə başa çatıb.

# IV Şəki Beynəlxalq Teatr Festivalının rəsmi açılış mərasimi olub

## Festivallar şəhəri kimi tanınan qədim Şəki daha bir beynəlxalq festivala evsahibliyi edir

**Şəki Dövlət Dram Teatrında IV Şəki Beynəlxalq Teatr Festivalına start verilib. Mədəniyyət Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə reallaşan festival Şəkidə milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr olunub.**




Dekabrın 5-dək davam edəcək festivalda ölkəmizin teatrları ilə yanaşı, Qazaxıstan, Özbəkistan və İrandan gələn tanınmış teatr kollektivləri də iştirak edirlər. Ölkəmiz bu festivalda Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, Gəncə Dövlət Milli Dram Teatrı və Şəki Dövlət Dram Teatrı ilə təmsil olunur.

Mərasimdən əvvəl festival iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar. Sonra Azərbaycanın Dövlət Himni səsləndirilib, Şəki teatrının fəaliyyətindən bəhs edən film nümayiş etdirilib.

Açılış mərasimində çıxış edən Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov festivalın şəhərin mədəni həyatı üçün çox vacib olduğunu vurğulayıb. Qeyd olunub ki, Azərbaycanın qədim mədəniyyət və incəsənət mərkəzlərindən biri olan Şəki şəhəri beynəlxalq festivalların, tədbirlərin keçirilməsi üçün unikal bir məkandır. 2017-ci ildə Şəki şəhəri UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin siyahısına, 2019-cu ildə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına və İCESCO-nun İslam İrsi Siyahısına daxil edilib. Eyni zamanda Şəki Dünya Tarixi Şəhərlər Liqasının da üzvüdür.

Əməkdar incəsənət xadimi, professor, "Şəki teatrı" kitabının müəllifi İlham Rəhimli çıxışında 145 illik tarixi olan Şəki teatrının keçdiyi şərəfli yola qısa nəzər salıb, kollektivin qazandığı uğurlardan danışıb.

Rəsmi açılış mərasimindən sonra Şəki Dövlət Dram Teatrının yaradıcı kollektivi tamaşaçılara görkəmli ingilis dramaturqu Vilyam Şekspirin "Heç nədən hay-küy" romantik komediyası əsasında səhnələşdirilmiş tamaşanı təqdim edib. Premyerası olan tamaşanın quruluşçu rejissoru teatrın baş rejissoru, Əməkdar incəsənət xadimi Mirbala Səlimli, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Dilşad Şirinovadır. Tamaşada rolları Əməkdar artistlər Xanlar Həşimzadə, Əbülfət Salahov, Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Arzu Mustafayeva, Aytac İsmayılzadə, Rəşid Mirizadə, Pərviz İsmayılov, Çingiz Novruzəliyev və digərləri ifa ediblər.

Tamaşada Orta əsrlərdə İtaliyada zadəgan ailələr, əyanlar və onların başına gələn romantik hadisələrdən bəhs edilib. Əsas mövzu dostluqdan, xəyanətdən, sevgidən və xeyrin şər üzərində qələbəsindən ibarətdir.

Uğurla başa çatan tamaşanın sonunda teatrın yaradıcı kollektivinə xatirə hədiyyələri təqdim olunub.



# Beynəlxalq festivalda Azərbaycan məhsulları təqdim olunub

**BMT-nin Vyana bölməsi nəzdində fəaliyyət göstərən Qadınlar Gildiyasının (UNWG) təşkilatçılığı ilə noyabrın 30-da Vyanada "Austria Center Vienna" konqres mərkəzində sayca 55-ci "Beynəlxalq Festival-Bazar" təşkil olunub.**



Xeyriyyə məqsədilə təşkil olunmuş bazarda şəhər sakinlərinə müxtəlif ölkələrin ləziz xörəklərinin dadına baxmaq, milli suvenirlər almaq və folklor qruplarının rəqs və musiqi proqramını seyr etmək imkanı yaradılıb.

Azərbaycanın Avstriyadakı səfirliyi hər il olduğu kimi, bu il də ölkəmizi tədbirdə təmsil edib. Festival-bazarda Azərbaycan üçün qurulmuş ayrıca guşədə milli suvenirlər, xalq sənəti nümunələri, eləcə də məhsullar nümayiş etdirilib.

Xeyriyyə tədbirində müxtəlif ölkələr öz mədəni proqramları və milli mətbəxləri ilə çıxış edirlər. "Beynəlxalq Festival-Bazar"da dünyanın 80-dən artıq ölkəsinin milli mətbəxi, suvenir və əl işləri təqdim edilir, həmçinin beynəlxalq təşkilatlar, bir sıra donor şirkətlər və banklar öz stendləri ilə təmsil olunurlar. Milli folklor qruplarının da iştirak etdiyi bazarda müxtəlif ölkələrin təqdim etdiyi hədiyyələr xeyriyyə məqsədilə lotereya oyununda uduşa çıxarılır.

UNWG azərbaycanlı üzvləri ilə sıx əməkdaşlıq edir. Bu ilin oktyabr ayında Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində təşkilatın üzvləri üçün Azərbaycan haqqında tanıtım tədbirinin təşkil olunması da bu əməkdaşlığın nəticəsidir.

# Amerikasayağı "demokratiya"

## Bayden vəzifəsindən sui-istifadə edərək narkoman, cinayətkar oğlunu azadlığa buraxdı

**ABŞ Prezidenti Co Baydenin vəzifəsindən sui-istifadə edərək həbsdə olan oğlu Hanter Baydeni azadlığa buraxması dünya mediasının müzakirə mövzusuna çevrilib. Böyük qalmaqala dönən bu məsələ ilə bağlı müxtəlif fikirlər söylənilir.**



Xatırladaq ki, ABŞ məhkəmələri tərəfindən 2018-ci ildən Hanter Baydenin vergidən yayınması və qanunsuz silah saxlaması ilə bağlı araşdırma aparılıb və qərar çıxarılıb. Belə ki, 2023-cü ildə ABŞ-nin Delaver ştat məhkəməsində hakimlər kollegiyası Hanter Baydeni silah alışı məsələsində təqsirli bilib. 54 yaşlı şəxs 2018-ci ildə odlu silah alarkən narkotik maddə qəbul etməməsi ilə bağlı yalan danışmaqda təqsirləndirilib. Bayden ittiham aktının hər 3 maddəsi üzrə təqsirli bilinib.

Co Bayden isə məhkəmədən öncə, oğlunun təqsirli bilindiyi halda onu əfv etməyəcəyini açıqlamışdı. Dünən isə onun Hunter Baydeni əfv etməsi ABŞ-nin 47-ci prezidenti Donald Trampı çox qəzəbləndirib. D.Tramp bunu sui-istifadə və hüququn aliliyinin pozulması kimi səciyyələndirib. ABŞ-nin yeni seçilmiş prezidenti öz paylaşımında belə yazıb: "Ədalətdən sui-istifadə ilə bağlı belə olur!"

Ümumiyyətlə, ABŞ tarixində korrupsiya, rüşvət və digər dövlət cinayətlərində günahlandırılan prezidentlər yetərincədir. Ancaq ABŞ və dünya mətbuatı konkret olaraq Co Bayden haqqında araşdırmalarda onu hər zaman "kriminal ailə başçısı" kimi təqdim edib.

Bayden dünya mediasında yalnız psixi durumu, müəmmalı davaranışları, hər gün törətdiyi növbəti rəsmi protokol qalmaqalı ilə deyil, həm də ailəsinin və şəxsən özünün cinayətləri ilə manşetləri "bəzəyir". Baydenlər "zəngin" kriminal keçmişə və müasir cinayətkar fəaliyyətə malikdirlər. Bu ailənin kriminal "inciləri" ən məşhur mafiya, narkobaron ailələrinin cinayətləri ilə yarışmağa hazırdır.

Hələ Barak Obamanın hakimiyyət illərində ABŞ-nin vitse-prezidenti olan Baydenin oğlu Hanter Ukraynada nüfuz lobbiçiliyi vasitəsilə milyonlarla dollar qanunsuz vəsait qazanıb. Məsələn, o, ən böyük müstəqil qaz istehsalçısı olan "Burisma Holdings"dən beş il ərzində 3-5 milyon dollar arasında vəsait mənimsəyib. Eyni zamanda ABŞ-dəki təsir vasitələrindən istifadə edərək kredit anlaşması adı ilə on milyonlarla dollar vəsait əldə edib. Özü də bu prosesdə bütün tərəfləri şantajla təhdid edib. Ukraynanın kabusuna çevrilən Baydenin oğlunun qanunsuz əməlləri daha geniş miqyas alanda Ukraynanın baş prokuroru Viktor Şokin Hanter barədə cinayət işi açıb. Bu məqamda prosesə "Xaç atası" - ata Bayden müdaxilə edib. Ukrayna rəhbərliyinə şantajları nəticəsində baş prokurorun vəzifədən azad edilməsinə nail olub.

Ukraynadakı gizli laboratoriyaları da hədəfə götürən Hanter Bayden qanunsuz nüfuz lobbiçiliyi ilə ABŞ Müdafiə Nazirliyinin podratçısı "Black&Veatch" ilə patogenlərin tədqiqi üzrə əməkdaşlıq edən "Metabiota" tibb şirkətinə ABŞ hökuməti ilə çoxmilyonluq müqavilə bağlamağa "kömək" edir. Qanunsuz pul dövriyyəsinin 50 milyon dollara yaxın olduğu barədə rəsmi məlumat verilir. Fakt aşkar olunanda istintaqı ABŞ Federal Təhqiqatlar Bürosu (FTB) öz üzərinə götürür. Lakin Co Baydenin müdaxiləsi ilə istintaqa məlum olan məlumatlar gizlədilir. Bir müddət sonra isə istintaq materialları "məxfi" qrifi ilə arxivə atılır.

Rusiya qarşısında tək qalmamaq üçün Ukrayna rəhbərliyi Bayden ailəsinin şantajlarına boyun əyir, Hanterin on milyonlarla dollar həcmində qanunsuz gəlirinə göz yumur, bu cinayətkar fəaliyyətin davamlılığına şərait yaradır…

Vitse-prezident Bayden və ailəsi Ukraynanın maliyyə resurslarını, iqtisadiyyatını beləcə dağıdır…

İllər keçir, Bayden artıq prezident statusunda Ukraynanın çoxəsrlik dövlətçiliyini, müstəqilliyini süquta uğratmağa başlayır, onu savaşa sövq edərək məğlubiyyətə uğradır, milyonlarla ukraynalını vətənindən didərgin salır…

Amma bu dəfə yalnız Ukraynaya vurulan zərər artmamışdı, yüksələn həm də Baydenlər ailəsinin qanunsuz gəlirləri idi…

Əslində, Baydenin milyardlar qazanan oğlu elə də xüsusi ağıla, hazırlığa malik deyil. O, narkoman olduğunu aşkar etiraf edib, küçələrdə gecələdiyini gizlətməyib. Məsələn, narkotikin təsiri altında olan Hanter xarab olmuş kompüterini Delaver ştatında kompüter təmiri sexinə verib. Burada isə onun növbəti cinayətləri barədə faktlar aşkar olub. ABŞ mediasına ötürülən məlumatlardan məlum olub ki, oğul Baydenin Çin şirkətlərindən milyonlarla dollar aldığını göstərən real bank sənədləri var.

Bank qeydlərində Çin dövlət şirkəti "CEFC China Energy"dən Hanter Baydenin "Hudson West" şirkətinə və "Owasco" hüquq firmasına 14 ayda 4,8 milyon dollar köçürülməsi əks olunmuşdu.

ABŞ Nümayəndələr Palatasının Nəzarət Komitəsinin sədri Ceyms Komerin araşdırması nəticəsində isə məlum olub ki, 2019-cu ildə Hanter Bayden çinli investor Li Xiang Shengdən atası Co Baydenlə ünsiyyət qurması üçün 250 min dollar alıb.

Baydenin oğlunun noutbukunda aşkar edilmiş elektron məktublar başqa cinayətləri də üzə çıxarıb. Atasının siyasi nüfuzundan xarici biznes sövdələşmələrində gen-bol istifadə edən Hanterin noutbukundakı 103 min mətn mesajı, 154 min elektron məktub, 2 mindən çox fotoşəkil əsasında o, narkotik vasitələrin qanunsuz dövriyyəsi və fahişəliyə cəlbetmə ilə məşğul olmaqda da şübhəli bilinib.

Bütün bunlar amerikasayağı "demokratiyadır". Digər ölkələrə qanunun aliliyindən dərs keçməyə çalışan Bayden administrasiyası ən ali səviyyədə belə qanunsuzluqlar törədir və onu lazım olanda istənilən formada gizlədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# "Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət" mövzusunda birgə regional seminar keçirilir

**Dekabrın 2-də Əqli Mülkiyyət Agentliyinin və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən "Kreativ iqtisadiyyat: data modeli, ölçülməsi və əqli mülkiyyət" mövzusunda birgə regional seminar işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə ÜƏMT arasında kreativ iqtisadiyyat sahəsində əməkdaşlığın davamı olan regional seminarda bu beynəlxalq təşkilatı təmsil edən nümayəndə heyəti, həmçinin Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan nümayəndələr iştirak edirlər.

Açılış mərasimində çıxış edən agentliyin rəhbəri Kamran İmanov bildirib ki, bugünkü regional seminar müəyyən mənada innovasiyadır: yeni yanaşma və yeni həllər yoludur. Bu seminar yaradıcılığı, ixtiraçılığı və özünüifadə etməyi davamlı iqtisadi artımın əsas drayveri kimi təsvir edir, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının yeni hazırlanan CEDM modelinin tətbiqi təklifini tətbiq etməyimizə dəstək göstərir.

K.İmanov diqqətə çatdırıb ki, CEDM - kreativ iqtisadiyyatın data (məlumat) modelidir. CEDM model empirik dataların toplanmasında, kreativ iqtisadiyyatın dəyərlənməsində çoxsahəli ölçü aləti rolunu oynayan və geniş faktorların nəzərə alınmasına imkan yaradan alətdir. Burada kreativ məhsul istehsalatı olan institusional mühit kreativ istehsalı tələb edən resurslar və kreativ sektorun iqtisadiyyata təsirini göstərən kreativ (yaradıcı) nəticələrdir. Bu cür yanaşma yenidir, daha dərin, mükəmməl aspektləri ilə yanaşı, sosial və mədəni aspektlərini də nəzərə alır və bu modeldə əqli mülkiyyətin rolu, xüsusən müəlliflik hüququnun əhəmiyyəti qabarıq şəkildə göstərilir.

ÜƏMT-nin departament direktorunun müavini, böyük menecer Dimiter Qançev çıxışında bildirib ki, bu gün əsas məsələlərdən biri iqtisadiyyatın şaxələndirilməsidir. Eyni zamanda biz iqtisadi baxımdan qeyri-sabit dövrdə yaşayırıq. Digər tərəfdən, hər kəs əlində olan resursları optimallaşdırmağa çalışır. Bunlardan biri də yaradıcılıqdır, kreativlikdir.

ÜƏMT rəsmisi diqqətə çatdırıb ki, kreativlik özü-özlüyündə iqtisadi inkişaf yaratmır. Bunun üçün mühit olmalıdır. Həmçinin bir mexanizm olmalıdır ki, kiçik şirkətlər, böyük şirkətlər öz məhsullarını bazara çıxara bilsinlər. Əsas mexanizmlərdən biri də əqli mülkiyyət hüquqlarının qorunmasıdır. Bunun vasitəsilə yaradıcılıq məhsulları bazara çıxarıla bilər və bundan iqtisadi dəyər əldə edilə bilər. Bu səbəbdən müəllif hüquqlarının və əqli mülkiyyət hüquqlarının qorunması yaradıcı sənaye üçün olduqca vacibdir.

D.Qançev qeyd edib ki, ÜƏMT 20 il əvvəl kreativ sənayenin iqtisadiyyata töhfəsini ölçən metodologiya hazırlayıb. Bunun da əsası müəllif hüququnun qorunmasıdır. Bu, çox önəmli və aydın meyarlardan biridir. Bu metodologiyanı 65 ölkə, o cümlədən Azərbaycan qəbul edib.

"Ümumi daxili məhsulda (ÜDM) kreativ sektorun rolu getdikcə güclənir. Metodologiyanı tətbiq etdik və anladıq ki, bu, tam şəraiti bizə demir. Bu, təkcə ÜDM və iş yerləri ilə bağlı deyil. Bunun sosial və mədəni təsirləri də var. Yaradıcılıq bir vakuumda fəaliyyət göstərmir. Bunun üçün müvafiq ekosistem olmalıdır ki, bu sahə genişlənsin və inkişaf etsin. İki gün ərzində regional seminarda biz növbəti addımları müzakirə edəcəyik. Məsələn, biz o ekosistemi necə görmək istəyirik ki, yaradıcılıq inkişaf edə bilsin, bunun üçün parametrlər necə olmalıdır. Biz inanırıq ki, yeni model vasitəsilə biz bir nümunə təqdim edə bilərik.

Azərbaycan bu layihəni ilk tətbiq etdiyimiz ölkələrdən biridir. Biz gələn il modelin icrasının nəticələrini açıqlayacağıq", - deyə ÜƏMT rəsmisi bildirib.

Tədbirdə çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov yaradıcı sənayenin dünyada sürətlə inkişaf edən sahələrdən biri olduğunu deyib. Onun sözlərinə görə, bu, həm rəqəmsallaşma, həm də dövlətlərin diqqətinin artırılması və sərmayə qoyulması ilə bağlıdır: "Yaradıcı sahənin inkişafı əqli mülkiyyət məsələlərinin əhəmiyyətini, aktuallığını da artırır. Bugünkü rəqabətli biznes mühitində əqli mülkiyyət bütün şirkətlər üçün dəyərli bir aktivə çevrilir. Kiçik və orta bizneslər üçün onların əqli mülkiyyət hüquqlarını başa düşmələri və qorumaları innovasiyaları təşviq etmək, bazarda mövcud olmaq və rəqabət üstünlüklərini qorumaq üçün çox vacibdir. Əqli mülkiyyət məsələləri, həmçinin "yaşıl innovasiya"lar "yaşıl iqtisadiyyat"ın dəstəklənməsində mühüm rola malikdir. Əqli mülkiyyət qorumaq və rəqabət üstünlüyünü təmin etməklə "yaşıl texnologiya"lara investisiyalar ayrılmasına xidmət edir. Bütün qeyd edilən amillər fonunda əqli mülkiyyət aktivlərinin genişlənməsi ölkəmizin "yaşıl inkişaf gündəliyi"nin daha effektiv həyata keçirilməsinə töhfə verəcək".

Açılış mərasimində həmçinin Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, deputat Hikmət Babaoğlu, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu, AZPROMO-nun rəhbəri Yusif Abdullayev çıxış edərək tədbirin mövzusunun aktuallığını qeyd ediblər, regional seminarın işinə uğurlar arzulayıblar.

Daha sonra tədbirdə Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun "Əqli Mülkiyyətin yenidən dərk edilməsi və kreativ iqtisadiyyat" mövzusunda məruzəsi dinlənilib.

Agentliyin rəhbəri bildirib ki, əqli mülkiyyətin müasir konteksti nəzərəçarpan dərəcədə dəyişib, onun kökündə təkcə hüquqi məna deyil, iqtisadi və sosiomədəni məna da başa düşülür. Əqli mülkiyyətin müasir kateqoriyasında fiziki və hüquqi şəxslərin əqli fəaliyyət nəticələrinə (ƏFN) verilən yalnız müstəsna hüquqlar deyil, bilavasitə ƏFN də nəzərə alınmalıdır.

Məruzədə kreativ iqtisadiyyatın inkişafında bir sıra qurumların, o cümlədən İqtisadiyyat Nazirliyinin, Əqli Mülkiyyət Agentliyinin, Mədəniyyət Nazirliyinin, habelə Elm və Təhsil, Rəqəmsal İnkişaf və Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mühüm rolu qeyd olunub.

K.İmanov diqqətə çatdırıb ki, Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalara görə, Azərbaycanda ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Bu göstərici 2024-cü ilin 1 yanvarına olan vəziyyətə görə 5,2 faizə çatıb və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir.

Daha sonra ÜƏMT-nin departament direktorunun müavini, böyük menecer Dimiter Qançev "Kreativ iqtisadiyyatın mövcud ölçmə modellərinə ümumi baxış" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə hər bir modelin dataya əsaslandığı qeyd olunub. Eyni zamanda bildirilib ki, data hər şeyi ifadə etmir. Məsələyə elmi yanaşılmalıdır. Datalar məlumata çevrilməli, qəbul edilən qərarların elmi əsası olmalıdır.

Seminarın ilk günündə ÜƏMT-nin nümayəndələri "Müəllif-hüquq sənayesi ÜƏMT çərçivəsində", "Kreativ iqtisadiyyatın data modelinin yaradılması", "Modelin çərçivəsi, strukturu və indikatorları", "İndeks metodologiyası və məlumat mənbələri, tələblər" mövzularında məruzələrlə çıxış ediblər.

İki gün davam edəcək seminarda ÜƏMT-nin peşəkar mütəxəssisləri kreativ iqtisadiyyatın aktual məsələlərinə dair məruzələrlə çıxış edəcək, əqli mülkiyyətin, o cümlədən müəlliflik hüquqlarının kreativ iqtisadiyyatın inkişafında payı barədə müzakirələr aparılacaq. Həmçinin kreativ iqtisadiyyatın inkişafında Azərbaycan təcrübəsi və bu sahədə ölkəmizdə həyata keçirilən layihələr barədə tədbir iştirakçıları qarşısında geniş təqdimat olacaq.

# Sabahın hava proqnozu açıqlanıb



Dekabrın 3-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı, yarımadanın ayrı-ayrı yerlərində leysan xarakterli olacağı gözlənilir. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a bildirilib ki, havanın temperaturu gecə 6-8° isti, gündüz 8-10° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunundan 769 mm civə sütununa enəcək. Nisbi rütubət 80-85 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 2-6° isti, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 0-5° şaxta olacaq.

# Ekvadorda silahlı hücum nəticəsində azı 10 nəfər ölüb

**Ekvadorun cənubunda yerləşən El Oro əyalətində silahlı hücum nəticəsində ekvadorlular və kolumbiyalılar da daxil olmaqla azı 10 nəfər ölüb.**

AZƏRTAC xəbər verir ki, yerli mediada yayılan məlumata görə, silahlılar icarəyə götürülmüş evdə yatan insanlara fərq qoymadan atəş açıblar. Polisin ilkin araşdırmalarına əsasən, hücum mütəşəkkil cinayətkar qruplar arasında davam edən münaqişələrlə bağlı ola bilər.

El Oro əyalətində zorakılıq və qeyri-sabitliyin kəskin artması fonunda oktyabrın 3-dən fövqəladə vəziyyət rejimi tətbiq olunur. İkiaylıq tədbir ölkənin digər yeddi bölgəsini, o cümlədən artan cinayətkarlıqla mübarizə aparan paytaxt Kitonu da əhatə edir.

İlin əvvəlindən başlayaraq, Ekvadorda qətllər, insan oğurluğu kimi ağır cinayətlər daxil olmaqla zorakılıq halları xeyli artıb. Buna cavab olaraq Prezident Daniel Noboa yanvar ayında ölkədə "terrorçu" kimi təsnif olunan 22 cinayətkar qrupa qarşı "daxili silahlı qarşıdurma" rejimi elan edib.




BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4327
Sifariş 2787

Qiyməti 60 qəpik